**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**MƏMMƏDOVA AFAQ SULTAN QIZI**

# FƏLSƏFİ FİKİR TARİXİNDƏ ROMANTİZM MƏRHƏLƏSİ (XVIII – XX ƏSRLƏR)

**İxtisas: 7210.01 - Fəlsəfə tarixi**

Fəlsəfə üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya AMEA Fəlsəfə və Hüquq İnstitutunun "Fəlsəfə və İctimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Rəsmi opponentlər:** **Mina Telman qızı Hacıyeva**
*Fəlsəfə üzrə elmlər doktoru*

**Məhəmməd Alı oğlu Balayev**
*Fəlsəfə üzrə elmlər doktoru*

**Şirindil Həsən oğlu Alışanlı**
*Filologiya üzrə elmlər doktoru*

**Aparıcı müəssisə: Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**

Müdafiə "_16__"__09______ 2016 -cı il saat ____da AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcələri almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında olacaqdır.

**Ünvan:** Bakı, Az-1143, H.Cavid prospekti, 115, AMEA-nın Fəlsəfə və Hüquq İnstitutu, 9-cu mərtəbə konfrans zalı.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ______ 2016 -ci il tarixdə göndərilmişdir.

**D.01.115 Dissertasiya Şurasının**

**elmi katibi, fəlsəfə üzrə fəlsəfə**

**doktoru** **Sevinc Arif qızı Həsənova**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı:** XXI əsrdə mədəni və ictimai həyatda baş verən mühüm dəyişikliklər bütün sosio-humanitar elmlər kimi fəlsəfənin də özündən əvvəlki tarixi-mədəni irsə münasibətinin yenidən dəyərləndirilməsi zərurətini yaratmışdı. Ümumbəşəri humanitar və fəlsəfi təfəkkürün postklassik paradiqmalara keçidlə bağlı nəzəri-metodoloji səpkidə böhranı onun yüksəldiyi tarixi mənəvi zəminin bütöv mənzərəsini yaratmaq və ictimai – fəlsəfi fikrin sonrakı inkişafına təsirini müəyyənləşdirmək üçün yeni bucaqdan baxış müstəvisini aktuallaşdırır. Çünki, bəşəriyyətin mənəvi mədəniyyət irsini, bu irsi yaratmış görkəmli filosofların yaradıcılığını, sonrakı nəsillərə qoyduqları mənəvi sərvətlər sistemini dərk etmədən, mənimsəmədən müasir fəlsəfi situasiyanı anlamaq və gələcək perspektivlərini müəyyənləşdirmək mürəkkəb məsələdir.

Bu problemi aktuallaşdıran digər cəhətlər aşağıdakılardır:

1. XXI əsr fəlsəfəsində Maarifçilik fəlsəfəsinin prinsip və hədəflərinin böhranı kontekstində "modernləşmənin yekunlaşdırılmamış layihəsini" (Y.Habermas) "yeni mədəniyyət" ilə əvəzləmək, rasional fəlsəfi təfəkkürün mövcud elmi mühakimələrinə əsaslı təshihləri labüdləşdirdi. Belə mühakimə irəli sürmək olar ki, postklassik və postqeyri - klassik fəlsəfə Romantizmin ənənələrinə əsaslanaraq formalaşmışdır. Universal sosiomədəni cərəyan olmaq etibarilə Romantizmin yeni "alternativ fəlsəfə"nin və müasir humanitar təfəkkürün ilkin tarixi nəzəri qaynaqlarından biri kimi dəyərləndirilməsi, onun fəlsəfi müstəvidə araşdırılması və ənənələrinin öyrənilməsinə cəhd tədqiqatımızı aktuallaşdıran məziyyətlərdəndir. Bu nöqteyi-nəzərdən, Romantizmin müasir qlobal mədəni məkanda və fəlsəfi fikir tarixində mühüm mərhələ kimi tədqiqinə cəhd xüsusi aktuallıq kəsb edir və özünün adekvat dəyərləndirilməsinə haqq qazandırır.

2. Romantizm cərəyanı XVIII əsrin sonlarından etibarən qlobal-mədəni məkanda universal fenomen kimi formalaşmış, dünya sosial, fəlsəfi və ədəbi-bədii fikrində özünəməxsus əhəmiyyətli yer tutmuşdur. Fəlsəfi fikir tarixində Maarifçilikdən sonrakı mərhələ kimi səciyyələnən Romantizm mövcudluğu ərzində cəmiyyətin mənəvi həyatının bir çox sferalarına - bədii ədəbiyyata, fəlsəfəyə, musiqiyə, təsviri sənətə, teatra və habelə, sosiologiya, tarixşünaslıq, tibb, təbiətşünaslıq və digər elm sahələrinə sirayət etmişdir. İctimai inkişafın müəyyən mərhələsində

Romantizmin çoxistiqamətli fikir cərəyanı kimi yaranması qanunauyğunluq kəsb edir. O, gerçəkliyi bədii obrazlarla, rasional və irrasional mənimsəyən fəlsəfi, təbii, elmi, sosial, siyasi, estetik, etik biliklərlə birbaşa bağlı olmuşdur.

3. Müxtəlif ölkələrdə təzahür edən Romantizm bu və ya digər xalqın milli tarixi yaddaşının daşıycısı və ifadəçisi kimi dünyanın qavranılması və mənimsənilməsinin özünəməxsus tərəflərini inikas etdirməklə spesifiklik kəsb etmiş, millilik və bəşəriliyin, rəngarənglik və yekcinsliyin bütöv ideya istiqamətində vəhdətini əks etdirmişdir. Bir sıra ziddiyyətli məqamlardan sərfnəzər etsək, həmin cərəyanın Azərbaycanın fəlsəfi və sosial mədəni mühitində də ortaq fəlsəfi problemlər dairəsinə və nəzəri metodoloji prinsiplərə malik olduğunu görmək mümkündür. Fikrimizcə, bütöv fikir cərəyanı kimi Romantizm cərəyanını struktur-funksional və genetik əlaqədə öyrənmək, ortaq fəlsəfi problemlərini vahid konteksdə müəyyənləşdirmək, xüsusi, ayırıcı və ümumi, bəşəri tərəflərini üzə çıxarmaq xüsusi önəm kəsb edir.

4. Sosiomədəni universal cərəyan kimi səciyyələnən Romantizmin inkişaf xüsusiyyətləri, onun nümayəndələrinin yaradıcılığı bu və ya digər ölkədə tədqiqat obyektinə çevrilsə də o, bütövlükdə qlobal mədəni məkanın və fəlsəfi fikir tarixinin xüsusi əhəmiyyət daşıyan mərhələsi kimi tədqiq edilməmişdir. Belə səciyyəli tədqiqatın zəruriliyi tədqiqatçıların əksəriyyəti tərəfindən vurğulansa da Romantizmin fəlsəfi fikir tarixində mühüm və növbəti mərhələ kimi öyrənilməsi demək olar ki, yox dərəcəsindədir. Bununla bağlı ictimai-fəlsəfi fikrin inkişafında varislik prinsipinin tələbləri baxımından Romantizm cərəyanının ictimai-fəlsəfi fikir tarixində yeri, rolu və spesifik əhəmiyyətinin xüsusi tədqiqat obyektinə çevrilməsi, onun dünya ictimai-fəlsəfi və bədii fikrinin sonrakı inkişafına təsirinin öyrənilməsi nəinki aktuallıq kəsb edir, eləcə də, mənəvi-mədəni inkişaf prosesinin məntiqi tələbi və obyektiv qanunauyğunluğudur. Problemin tədqiqinə cəhdimiz məhz bu zərurətlə də bağlıdır.

5. Tədqiqatın aktuallığı həm də gerçəklikdə cərəyan edən ictimai, siyasi və ideoloji hadisələrlə də şərtlənir. Fəlsəfi fikir tarixinə dair məsələləri çağdaş siyasi reallıqlardan və ictimai praktikadan təcriddə öyrənmək qeyri mümkündür. Təsadüfi deyildir ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev 21 sentyabr 1993-cü il tarxində Azərbaycan Milli Elmlər Akademiyasında respublikamızın ziyalıları ilə görüşündə demişdir ki, «Azərbaycan rəhbərliyinin siyasətinin elmi

əsasını təşkil edən humanitar elmlərin başlıca vəzifəsi dünya təcrübəsinin hərtərəfli öyrənilməsi və ümumiləşdirilməsi, dövlətimizin siyasi, iqtisadi, sosial və dini sahələrdə ictimai inkişafının əsas qanunauyğunluqlarının müəyyən olunmasından ibarətdir»[1].

6. Postindustrial cəmiyyətdə sosiumların sistemli transformasiyası, dövlət suverenliyi və milli-mədəni inteqrasiya prinsiplərinə söykənən ənənəvi siyasi sistemlərin və siyasi idarəetmə alətlərinin tədricən zəifləməsi insanlarda rasional nizamlanmış ictimai quruluşun perspektivlərinə inamı azaldır. Sosial optimizmin aşınması və rasional səviyyədə əsaslandırılmış ideoloji hədəflərə, «sosial dövlət», «rifah cəmiyyəti» ideallarına qarşı ictimai laqeydliyin mövcudluğu aydın şəkildə nəzərə çarpır. Sanki klassik yüksək humanist dəyərlər həyata keçmiş faktik praktika kimi artıq «öz missiyasını başa vurmuş» təəssüratı yaradır. Bu reallıq isə, tarixi yaddaşla müasirliyin, varisliklə ənənəviliyin əlaqələndirilməsi baxımından, mövcud olduğu ölkələrin milli intibahının ayrılmaz tərkib hissəsi kimi çıxış etmiş Romantizmin ictimai, mədəni və siyasi mühitə sirayətinin, milli və fərdi mənlik şüurunun formalaşdırması vasitələrini düzgün müəyyənləşdirmək təcrübəsinin adekvat nəzəri və metodoloji əsaslarda tədqiqini zərurətə çevirir.

7. XXI əsrdə geniş vüsət almış şüurun planetarlaşması prosesinin lokal milli mədəniyyətlərin dialoquna köklənməsi, qloballaşmanın milli özündərkə və mənəvi dəyərlərə söykənməsinin yeni əsaslarını araşdırmaq, xalqların sosial və mənəvi yaddaşının obyektiv, qərəzsiz öyrənmək hazırda aktual məsələlərdən biridir. Bu baxımdan dünya mədəniyyətinin təkamülünə Romantizmin sosial, fəlsəfi və ideoloji təsirinin tədqiqi, bu istiqamətdə onun rolu və yerinin müəyyənləşdirilməsi tədqiqatımızı aktuallaşdıran amillərdəndir.

8. Yeni minilliyin başlanğıcında informasiya cəmiyyətinin qərarlaşması, qloballaşma və inteqrasiyanın dərinləşməsi məhz milli mənəvi mədəniyyətə söykənir. Tarixi mədəni dəyərlər irsini, mənəvi sərvətlər sistemini aydın və əhatəli dərk etmədən, mənimsəmədən bəşəri mədəniyyətin gələcək taleyini və sosial tərəqqinin perspektivini müəyyənləşdirmək mürəkkəb məsələdir. Bu baxımdan milli mədəniyyətlərin mahiyyətini və inkişaf meyillərinin tam mənzərəsini formalaşdırmaq üçün ictimai və fəlsəfi fikrin bütün mərhələlərinin,

---

[1] Azərbaycan qəzeti, 21 sentyabr, 1993, №185

habelə, sosio-mədəni universal cərəyan olmaq etibarilə, Romantizmin dərin tədqiqinə xüsusi ehtiyac duyulur.

9. Son iki yüzillikdə mənəvi mədəniyyətin müxtəlif sahələrində aparıcı mədəni-tarixi hərəkatlardan biri kimi çıxış etmiş Romantizm (Spirkin) cərəyanı nəinki Sovet, həmçinin postsovet məkanı ədəbiyyatşünaslığında filoloji aspektdən müəyyən şəkildə öyrənilmişdir. Lakin bir cəhəti xüsusi qeyd etmək vacibdir ki, sovet cəmiyyətində hər şeyə, bütün fəaliyyət növlərinə hakim kəsilmiş metodoloji, nəzəri və xüsusilə, ideoloji ehkamçılıq və qəliblər bütün sosio-humanitar sahələr kimi fəlsəfənin də başı üstündən “Domokl qılıncı“ kimi asılmışdı. Həmin məkanda tədqiqatçılar səriştəsindən və intellektual səviyyəsindən asılı olmayaraq “müəyyən edilmiş“ nəzəri, ideoloji və metodoloji stereotiplərdən kənara çıxa bilməzdi. Romantizm cərəyanı nümayəndələrinin irsinin tədqiqatçıları da belə totalitar ideoloji hökmranlığa məruz qalmışdılar. Bu baxış müstəvisindən etiraf etmək lazımdır ki, sovet cəmiyyətində Romantizm cərəyanın tədqiqindəki bu nöqsan və çatışmazlıqlar müəlliflərin zəkasının və təfəkkürünün naqisliyi ilə deyil, dövrün, sosial zaman və məkanın törətdiyi konkret şəraitlə əlaqəlidir. Digər cəhətdən, belə bir məqamı diqqətə almaq lazımdır ki, romantik şair və mütəfəkkirlərin elmi və fəlsəfi irsini öyrənmədə müxtəlif yanaşmalar və qiymətləndirmə meyarları ola bilər. Dövrün sərt şəkildə qoyduğu nəzəri və ideya məhdudluqlarına qarşı heç də hamı eyni cür təpər göstərə bilmir. Fiziki və mənəvi xof və vahimənin ağır təsiri altında çox hallarda müəlliflər bildiklərini yox, tələb olunanı söyləməyə üstünlük verirdilər. Bu isə onların nöqsanı olmaqdan daha çox əqli faciələri idi. Belə ehkamçı tədqiqatçılıq meyli bütün sosio-humanitar sahələr kimi fəlsəfə tarixinə münasibətdə də özünü təzahür etdirmişdir. Buna görə dialektik materializm və marksist ideologiyası çərçivəsində "saf-çürük" edilmiş Romantizm cərəyanının tədqiqindəki bu qəbildən olan nöqsanları aradan qaldırmaq üçün onun obyektiv elmi-nəzəri, ideoloji, metodoloji plüralizm prinsipi kontekstində araşdırmanın zəruriliyi bir daha aydın olur.

**Problemin tədqiq olunması.** Sosiomədəni universal cərəyan olan Romantizmin müxtəlif aspektlərinin və problemlərinin tədqiqinə həsr edilmiş əsərləri vahid meyarla qiymətləndirmək mümkün deyildir. Müəlliflərin problemə yanaşma tərzi, əsaslandıqları ilkin nəzəri və metodoloji prinsiplər müxtəlif dövrlərin sosial sifarişinin ciddi təsirinə məruz qaldğından yazılan əsərlərin böyük bir səpələnmə

qövsü nəzərə çarpır. Dediklərimizi nəzərə alaraq problemin tədqiqi tarixini şərti olaraq dövrləşdirsək, fikrimizcə, onu inqilabaqədərki, sovet və müasir mərhələlərdə nəzərdən keçirmək məqsədəuyğun olar;

Qeyd etmək lazımdır ki, inqilabaqədərki və erkən sovet mərhələsində problemin tədqiqi əsas etibarilə filoloji istiqamətdə aparılmışdır.

Bu mərhələdə romantizm cərəyanının estetik prinsip və meyarları, məqsəd və vəzifələri Azərbaycan ədəbiyyatşünaslığında Seyid Hüseyn, Cəfər Cabbarlı[2], Rusiyada V.Q.Belinski, Q.Brandes, N.Kotlyarevskiy, İ.İ.Zamotin, A.N.Veselevskiy[3] və digərlərinin ədəbi-nəzəri əsərlərində müəyyən şəkildə tədqiq olunmuşdur.

Azərbaycanda XX əsrin əvvəllərində Romantizm cərəyanı və onun müxtəlif nümayəndələrinin yaradıcılıq spesifikliyi yazıçı və tənqidçi Seyid Hüseynin (Kazımoğlu) "Açıq tənqid" (1919) kitabında diqqəti cəlb edir. Seyid Hüseynin şərhinə görə, "romantik mühərrirlər heç bir qanuna tabe olmaq istəməzlər. Onların şəxsi zövqləri onlar üçün bir qanundur. Onlar, yəni romantiklər öz düşüncə və mühakimələrində sərbəstdirlər. Onlar hər şeydə gözəlliyi görürlər və bu yolda hissiyyatı-şədidəyə namütənahi bir surətdə qapılırlar. Hələ bəziləri tarixi simalara istədikləri təbiət və xasiyyətləri vermək, tarixin xilafına hərəkət etdirib söz söylətdirmək səlahiyyətinə də malik bulunurlar. Kimsə onları məsləklərindən dolayı tənqid etməz. Romantiklər həyatı istədikləri təcəllidə görmək istəyirlər, onu bir takım rəngarəng əlbisələrlə süslərlər, bu onların təbiətləridir"[4].

C.Cabbarlı elmi və publisist yazılarında milli ədəbiyyatı təhlil

---

[2] Bax: Cəfərov M.C., Azərbaycan ədəbiyyatında romantizm, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1963, 218 s. Cabbarlı C. Əsərləri, 4 cild., Bakı, Şərq-Qərb nəş., IV c, 2005, 288 s.

[3] Белинский В.Г., Полное собрание сочинений (в 13-ти т-х), Москва, Изд-во Акад Наук СССР., т-11. 1956. 718 с., т-12. 1956. 596 с. Брандес Г. Литература XIX века в ее главных течениях (перевод Неведомского). Спб., 1881., 370с. Замотин И.И., Романтизм двадцатых годов XIX столетия в русской литературе, т-2, СПБ-М, 1913., Веселовский А.Н. Избранные статье, Л.,1939,517 с. Котляревский Н. История романтического настроения во Франции, 1892-1893, 4.1. XXIII 266 с., 4.2. 327 с.

[4] Cəfərov M.C., Azərbaycan ədəbiyyatında romantizm, Bakı, SSR EA nəşriyyatı, 1963, c.13.

edərək romantizmin ədəbi və fəlsəfi fikir tarixinin zəruri və qanunauyğun mərhələsi olduğuna işarə edərək yazırdı ki, «Ədəbiyyatımız, hal-hazırda yeni klassizm dövrünü bitirmiş, daha doğrusu bitirmək üzrədir. Ona görə biz sıra etibarı ilə nə qədər irəli getmək istərsək, ya gedəcək olursaq, yenə heç olmazsa, Romantizm dövrünü keçirməliyik»[5].

Azərbaycan ədəbiyyatşünaslığı sovet mərhələsinin 30-cu illərində Romantizm cərəyanını pantürkizm, panislamizm və millətçilikdə «suçlamışdır». Qlobal mədəni həyatın unversal cərəyanı olan Romantizmin "mürtəcelər" adlandırılan istiqaməti təmsil edən nümayəndələri tamamilə rədd edilmiş, "mütərəqqi" hesab edilmiş şair və yazıçıların əsərlərini isə marksist dünyagörüşü prinsiplərinə uyğunlaşdırmağa və modernizə etməyə çalışmışdılar. 1937-ci ildə Sovet ədəbiyyatı nümayəndəsi A.Fadeyevin "Daloy Şillera" şüarı adekvat olaraq Azərbaycanda "Rədd olsun Füzuli" şüarını ortaya atmağa və Romantizmə qarşı yüruşu stimullaşdırmağa ideya zəmini yaradırdı. Qeyd etdiyimiz kimi, həmin illərdə yazılan tədqiqat əsərlərində və elmi məruzələrdə romantiklər ya millətçilikdə, ya pantürkizm ideologiyasına xidmətdə günahlandırılır, ya da onları kosmopolit və ateist[6] adlandırırdılar.

Bu mərhələdə M.C.Paşayevin "Azərbaycanda ədəbi məktəblər" (1907-1947)[7] adlı doktorluq dissertasiyası Romantizm tədqiqi baxımından mühüm tarixi və elmi dəyər kəsb edirdi. Müəllif aydın nəzərə çarpan elmi obyektivlik nümayiş etdirmiş, ilk dəfə olaraq Romantizmi ədəbi məktəb kimi dəyərləndirmişdir.

Sovet mərhələsinin 50- ci illərində də romantiklərə münasibət birmənalı olmamışdır. Prof. C.Xəndanın 1951-ci ildə ADU nəşriyyatında çap edilmiş "XX əsr Azərbaycan ədəbiyyatı"dərsliyində romantizm "əksinqilabçı burjua", mürtəce ədəbi hadisə kimi qiymətləndirilir. Romantiklərdən bir qismi isə "mürtəce Türkiyə xırda burjua yazıçılarının təsiri altında realizmə qarşı mürtəce romantizmi təbliğ etmiş"sənətkarlar kimi tənqid atəşinə tutulur[8]. Lakin həmin illərdə çap olunmuş K.Talıbzadənin "A.Səhhət" (1955), Ə.Mirəhmədovun

---

[5] Cabbarlı C. Əsərləri, 4 cilddə., Bakı, Şərq-Qərb nəş., IV c, 2005, s.205.

[6] Ələkbərli M.K., Azərbaycan ədəbiyyatı, (İnqilab və Mədəniyyət jurnalı №11-12), 1934.

[7] Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər Bakı, Ziya-Nurlan, 2004, 391s.

[8]Cəfər Xəndan, XX əsr Azərbaycan ədəbiyyatı, Bakı ADU. 1955, 335 s.

“Məhəmməd Hadi“ (1958) monoqrafiyaları Romantizmin tədqiqində ciddi irəliləyiş hesab edilə bilər.

Bəhs olunan mərhələnin 60-70-ci illərində “Azərbaycan ədəbiyyatında romantizm“ (1960) əsəri ilə M.Cəfər, “Faciə və qəhrəman“ (1965) əsəri ilə Y.Qarayev, “XX əsr Azərbaycan tənqidi“(1966) monoqrafiyası ilə K.Talıbzadə, “XX əsr Azərbaycan romantizminin estetik prinsipləri“ (nam. dis. 1967) tədqiqatı ilə Rəfiq Zəka, “Hüseyn Cavid romantizmi“(1975) monoqrafiyası ilə M.Əlioğlu diqqəti cəlb edir[9]. Bu tədqiqatlarda Romantizm yalnız yaradıcılıq metodu kimi deyil, eləcə də, ayrıca ədəbi cərəyan səviyyəsində tədqiq edilir. Xüsusilə, M.Cəfərin Romantizm cərəyanı, onun nəzəri estetik prinsip və meyarları haqında mülahizələri Romantizmə aid yazılmış tədqiqat əsərlərinin ideya təkamülünə müəyyən təsir göstəmişdir. Rəfiq Zəka “XX əsr romantizminin estetik prinsipləri“ adlı dissertasiyasında ənənəvi olaraq romantikləri iki cəbhəyə ayırırdı: “Bunlardan biri inqilabi romantiklər, digəri isə mürtəce romantiklərdir. İnqilabi romantizmdə bu günü mübarizələrdən doğan gələcəyə qarşı nikbin bir xəyal vardır. Mürtəce romantiklər isə gələcəyi keçmişdə axtaran romantiklərdir“[10].

Azərbaycan ədəbiyyatşünaslığında 80-ci illərdən başlayan tədqiqat əsərlərində Romantizmə münasibətdə nəzərə çarpacaq irəliləyişlər, obyektiv yanaşmalar müşahidə olunur. Ə.Mirəhmədovun “Məhəmməd Hadi“ kitabı (1985), K.Əliyevin “XX əsr Azərbycan romantiklərinin ədəbi nəzəri görüşləri“ (1985) M.Ağamirovun «Məhəmməd Hadinin fəlsəfəsi» (1987) İ.Həbibovun “Romantik lirikanın imkanları“, (1984) V.Osmanlının “Azərbaycan romantikləri“ (1985), adlı monoqrafiyası, T.Əfəndiyevin “Romantik dramaturgiyada tarixilik və bədiilik“ (1999) doktorluq dissertasiyası, Ş.Alışanlının «Romantizm: mübahisələr, həqiqətlər (Romantizm problemi və Azərbaycan ədəbiyyatşünaslığında onun işıqlandırılması)» (2000) monoqrafiyası, A.Əliyevanın «Azərbaycan romantikləri və türkçülük hərəkatı» (2003) və digər əsərlərdə köhnə stereotiplərin aradan

---

[9]Talıbzadə Kamal, XX əsr Azərbaycan ədəbi tənqidi, Bakı, Azərbaycan SSR EA, 1966., Qarayev Y., Faciə və qəhrəman, Bakı, Azərb. SSR EA, 1965, 192s., Əlioğlu M., Hüseyn Cavidin romantizmi, Bakı, Azərnəşr, 1975, 215 s. və b.

[10]Rəfiq Z., XX əsr Azərbaycan romantizminin estetik prinsipləri, 1967, 134 s., namizədlik dissertasiyası, makina yazısı, düzəlişmə, Salman Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət arxivi, iş 611, siyahı 1-3. s.156.

qaldırılması ilə başlanan fikir plüaralizmi nəzərə çarpır[11].

Bununla yanaşı, həmin əsərlərin çoxluq təşkil edən qismində marksist dünyagörüşü prinsipləri başlıca metodoloji istiqamət kimi nəzərə çarpırdı.

Sovet məkanında Avropa və Amerika romantiklərinin əsərlərinin rus dilinə tərcüməsi bu istiqamətdəki tədqiqatlara təkan vermişdir. Bəhs olunan dövrdə sovet-rus ədəbiyyatşünaslığında romantizmin filoloji səpgidə tədqiqində əhəmiyyətli rol oynamış N.Y.Berkovski, B.Q.Reizov, V.V.Vanslov, A.S.Dimitriyev, A.V.Mixaylov, A.V.Karelskov və başqalarının əsərlərində əsasən romantiklərin estetik görüşləri öyrənilmişdir. Sovet tədqiqatçılarından R.M.Qabitova, N.A.Solovyovanın[12] əsərlərində Romantizm universal fikir cərəyanı kimi tədqiqata cəlb olunur. Sadalanan müəlliflərin əsərlərində Romantizmin sosio-mədəni universal cərəyan olaraq XVIII-XX əsrlərdə fəlsəfi fikir tarixinin qanunauyğun mərhələsi kimi obyektiv dərk edilməsinin başlanğıcı qoyulmuşdur. Onların hamısı öz tədqiqatlarında Romantizmin fəlsəfi mahiyyət kəsb etdiyinə dair mülahizələr irəli sürsələr də, bu aspektdə xüsusi tədqiqat aparmamışdılar. Hətta sovet dövrü fəlsəfi lüğətlərində romantizm dövrünü səciyyələndirən əsaslı şərhlər yox dərəcəsindədir.

Müasir mərhələdə də Romantizm maraqlı tədqiqat obyekti kimi aktuallıq kəsb edir. Romantizm fəlsəfəsi və onun ayrı-ayrı problemlərinin təhlilinə həsr olunmuş elmi nəşrlərin sayının artması diqqəti cəlb edir. Postsovet məkanında problemin qlobal mədəni-tarixi və fəlsəfi fenomen kimi tədqiqi istiqamətində A.V.Qulıqa, Y.L.Arkan,

---

[11]Həbibov İ. Romantik lirikanın imkanları, Bakı, Yazıçı, 1984., Əliyev K., XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri, Bakı, Elm, 1985., Osmanlı V., Azərbaycan romantikləri, Bakı, Yazıçı, 1985., Mirəhmədov Ə., Məhəmməd Hadi, Bakı, Yazıçı, 1985., Алышанлы Ш. Романтизм. Споры и истины. Баку, 2000., Əliyeva A. Azərbaycan romantikləri və türkçülük hərəkatı. dok. Dis. B., 2003.

[12] Берковский Н.Я. Романтизм в Германии. СПб., 2001.Берковский Н.Я., Проблемы романтизма, Москва, 1971, 210 с.Ванслов В.В., Эстетика романтизма, М., Исскуство, 1966, т-2, 403 с., Дмитриев А.С., Проблемы иенского романтизма, Москва, Моск. Ун-та, 1975, 264с., Габитова Р.М., Философия немецкого романтизма (Гельдерлин, Шлейермахер), Москва, Наука, 1989, 159 с.

V.İ.Qreşnıx[13] və başqalarının əsərləri xüsusilə diqqətçəkəndir. Romantizmin sosial fəlsəfi məqamlarının təhlili V.F.Asmusun və M.S.Kaqanın[14] tədqiqatlarında nəzərə çarpır. M.S.Kaqan «Dünya mədəniyyəti tarixinə giriş» (2001) əsərində romantizmi "son iki yüzillikdə bütün mənəvi məkanı, fəlsəfə, əxlaq, siyasi ideologiya, tarix elmini və habelə, bütünlükdə bədii mədəniyyət sahəsini əhatə etmiş ümummədəni miqyaslı hərəkat» kimi təqdim etmişdir. Kaqan mədəniyyət tarixini iki qütb təmayülün - romantizm və pozitivizmin qarşıdurması konteksində şərh etməyə cəhd edir.

Görkəmli fəlsəfə və mədəniyyət tarixi tədqiqatçıları A.Q.Spirkin, A.V.Mixaylov, Y.V.Perov, V.M.Jirmunski və digərlərinin[15] problemin mahiyyətinə dair maraqlı yanaşmaları Romantizmin məhz fəlsəfi tədqiqatın obyekti kimi zəruriliyini əyaniləşdirir.

Təqdirəlayiq haldır ki, Rusiyada son dövrlərdə yazılmış bir sıra dissertasiyalarda[16] Romantizmə dair tədqiqatlar filoloji, hermenevtik və hətta fəlsəfi rakursları ehtiva edir.

Azərbaycanda müasir dövrdə Romantizmə ciddi elmi münasibət aydın şəkildə nəzərə çarpır. Belə ki, Z.Quluzadənin "VII-XVI əsrlərdə Azərbaycan fəlsəfəsi tarixindən", «Sosiomədəni inkişafın tədqiqinin konseptual problemləri» (XX əsrin sonu XXI əsrin əvvəlləri) adlı əsərləri, S. Xəlilovun «Cavid və Cabbarlı. Müxtəlifliyinin vəhdəti: fəlsəfi etüdlər», «Şərq ruhunun Qərb həyatı. Aida İmanquliyevanın yaradıcılıq axtarışlarının izi ilə», Y.Qarayevin «Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər» E.Zamanovanın «XX əsr Azərbaycan romantizminin estetikası» (2007), Ş.Alışanlının «Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı» (2011) əsərləri[17] problemin

---

[13] Аркан Ю.Л. Очерки социальной философии романтизма. СПб., 2003; Гулыга А.В. Немецкая классическая философия. М., 2001.,

[14] Асмус В.Ф. Избранные философские труды: в 2 т. М., 1971., Каган М. С., Введение в историю мировой культуры. Книга вторая СПб., 2001

[15] Спиркин А.Г. Философия. М.: Гардарики, 2000. 368 с., Жирмунский В.М. Немецкий романтизм и современная мистика. СПб, 1996.

[16] Окружко В.В. Философия культуры раннего немецкого романтизма, дисс на соиск. уч. степени к.ф.н., М., 2009., Литвинова Т.В. Религиозная ментальность в культуре западноевропейского романтизма, Ростов-на-Дону, 2004, дис., Милиев Вадим Анварович. Немецкий Романтизм и формирование консервативной идей, Мурманск, 2006, дис.290 стр.

[17] Qarayev Y., Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. B., Elm, 2002, 257s., Xəlilov S., Cavid fəlsəfəsi, Bakı, Qanun, 110 s., Xəlilov S., Cavid və Cabbarlı.

öyrənilməsində ayrıcalıq təşkil edir. Z.Quluzadənin yuxarıda sadalanan əsərlərində Romantizmin sosio-mədəni cərəyan kimi tədqiqinin zəruriliyi əsaslandırılmış, Azərbaycan Romantizminin fəlsəfi problemləri konseptual səpgidə qoyulmuş və təhlil edilmişdir. Romantizm cərəyanının hermenevtika sahəsində təzahürü A.Hacıyevanın «Mədəni tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti» (2004) və "Hermenevtika Şərqdə: Fəlsəfə tarixi kontekstində," (2006) adlı monoqrafiyalarında, Azərbaycanda romantizmin nümayəndələrinin təbii-elmi səpgidə baxışları İ.Rüstəmovun «Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri», onların estetik görüşləri E.Zamanovanın «XX əsr Azərbaycan romantizminin estetikası» əsərlərində, romantizmin musiqi sahəsində təzahürü isə G.Aslanovanın «Şumanın erkən fortepiano yaradıcılığı romantizmin musiqi estetikası işığında» adlı əsərində[18] əhatəli və dolğun tədqiq olunmuşdur. Məhz buna görə, həmin məsələlərə dissertasiyada ayrıca diqqət yetirilməmişdir.

Yuxarıda sadaladığımız tədqiqat əsərləri Romantizmə və onun klassik nümayəndələrinə ədəbiyyatşünaslığın diqqət yetirdiyini ifadə edir. Lakin müasir dövrdə də problemə həsr edilmiş əsərlərin böyük qismində Romantizm bədii yaradıcılıq metodu və ya ədəbi cərəyan "həddi" ilə məhdudlaşdırılır. Romantizmin «mürtəce», «mütərəqqi» və s. istiqamətlərdə təsnif olunması meyli davam edir. Bu tədqiqatlarda romantizm fəlsəfəsinin ideya-nəzəri qaynaqları, problematikası, fəlsəfi fikrin sonrakı inkişafına təsiri və ənənələri, əsrin əvvələrindəki milli ictimai gerçəkliyin siyasi, ideoloji fikrində bu cərəyanın yeri, əhəmiyyəti və rolu əsaslı şəkildə öyrənilməmişdir.

Romantizmin fəlsəfi səpkisi istər Azərbaycan, istərsə də postsovet məkanı hüdudlarında kifayət qədər öyrənilməsə də, bu problemin fəlsəfi

---

Müxtəlifliyin vəhdəti. Bakı, «Azərbaycan Universiteti» nəş-tı, 2001, 180 s., Кулизаде З.А., Концептуальные проблемы исследования социокультурного развития (конец XX –начало XXI вв)., I ч. Баку: «Текнур», 2009, с 396; II Баку: «Текнур», 2009, с 398. Şirindil Alışanlı. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı, «Elm», 2011, 376 s., Заманова Э.Эстетика Азербайджанского Романтизма XX века, Б., 2007, 170с.

[18] Rüstəmov İ., Azərbaycanda təbii-elmi biliyin inkişafının fəlsəfi problemləri, (XIX əsr - XX əsrin əvvəli) B., Diplomat nəş-tı, 2001, 483 s., Hacıyeva A.Ə. Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. Bakı, «Adiloğlu» nəş-tı, 2004, 168 s.

rakursda tədqiqi əsas etibarilə Amerika və Avropa tədqiqatçıları tərəfindən aparılmışdır. Xarici müəlliflərin (Rudolf Haym, B.Rassel, Vilhelm Diltey, C.Reale və D.Antiseri, V.Vindelband, E.Kassirer, Q.Q.Qadamer, Y.Xabermas, M.Haydegger, Zimmel, D.Lukaç, K.Manniheym, E.Trelç, B.Rassel, N.Hartman, R. Heyne, Anstett J. J., Bernard M. G., Carl Schmitt, Cooper A. M., Desider Vikor, Andrev Cunningham və Nicholas Jardine, Duncan V., Edvard Larrissy, Gavin Hopps və Jane Stabler, Frederick C. Beiser, Frederic P. Miller, C.Nakai, Irving Babbitt, M.Frank və digərlərinin Romantizmə həsr edilmiş tədqiqat əsərlərində[19] bu cərəyanın sosiomədəni hərəkat kimi fəlsəfə və ictimai fikir tarixində rolu və ənənələri, ideya nəzəri və metodoloji prinsipləri və fəlsəfi problematikası haqqındakı mülahizələri xüsusi ilə diqqətəlayiqdir və tədqiqatımızın nəzəri mənbələrini təşkil edir.

**Tədqiqatın obyektini** sosiomədəni universal cərəyan olan Romantizm, **predmetini** isə bu cərəyanın fəlsəfi problematikası, fəlsəfi fikir tarixində yeri və rolunun tədqiqi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri**. İşin məqsədi sosiomədəni universal cərəyan olan Romantizmi ictimai fəlsəfi fikir tarixində bütövlükdə müəyyən mərhələ kimi araşdırmaq və onun fəlsəfi problemlərinin sistemli təhlilinə cəhd etməkdən ibarətdir. Tədqiqatın məqsədinə nail olmaq üçün aşağıdakı vəzifələr yerinə yetirilmişdir;

- Romantizm fəlsəfəsinin ideya-nəzəri əsaslarının müqayisəli təhlilinə cəhd edilmiş və bu cərəyanın təşəkkülünün tarixi-fəlsəfi qaynaqları araşdırılmışdır;

---

[19] Виндельбанд. В., От Канта к Ницше М.: «КАНОН-пресс», «Кучково поле», 1998, Хабермас Ю. Философский дискурс о модерне М., 2008, 416с. Рассел Б. История западной философии. М., 2000, 315 с. Гайм Р. Романтическая школа. Вклад в историю немецкого ума. – М., 1891. 774 стр. Реале Дж. Антисери Д., Западная философия от истоков до наших дней, т-4, (От романтизма до наших дней.) ТОО ТК "Петрополис", Санкт-Петербург, 1997, 880 с. Carl Schmitt Political Romanticism Transaction Publishers, 2010, 221 p., Edward Larrissy. Romanticism and postmodernism Cambridge Univ. Press, 1999, 238 p., Frederic P. Miller … Romanticism: Romantic Music, Romantic Nationalism, Romantic Poetry, Romanticism in Science, Neo-romanticism, Bohemianism Alphascript Publishing, 2009, 128 p., James Robert Allard Romanticism, medicine, and the poet's body Nineteenth century Ashgate Publishing, Ltd., 2007, 166 p. Nikolas Kompridis. Philosophical romanticism. Routledge, 2006, 304 p., Poggi S., M. Bossi. Romanticism in Science: Science in Europe, 1790-1840 Springer, 2010, 264 p.

- Romantizm cərəyanının təzahürünü şərtləndirən sosial, ideoloji, əxlaqi, psixoloji, milli, mənəvi amillər tədqiq olunmuşdur;

- Romantizmin müxtəlif bilik sahələrində (ədəbiyyatşünaslıq, təsviri sənət, musiqi, teatr, tarixşünaslıq, təbiyyat elmləri, iqtisadi nəzəriyyə, sosiologiya və s.) təzahürü izlənilmiş və üzə çıxarılmışdır;

- Sosiomədəni universal cərəyan olaraq Romantizmin fəlsəfi fikir tarixinin Maarifçilikdən sonrakı qanunauyğun mərhələsi kimi əsaslandırılmasına cəhd edilmişdir;

- Romantizmin görkəmli nümayəndələrinin yaradıcılığında fəlsəfi problemlərin üzə çıxarılmasına və təhlilinə diqqət verilmişdir.

- Romantizmdə varlıq, idrak, teosofiya və antropoloji problemlərin sistemli tədqiqinə səy göstərilmişdir;

- Romantizm cərəyanının müxtəlif dövrlərdə və ayrı-ayrı ölkələrdə təzahürlərinin ümumi, oxşar cəhətlərinin, habelə onları fərqləndirən spesifik ayırıcı cəhətlərin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirilmişdir;

- Şərq Romantizminin inkişaf xüsusiyyətləri izlənilmiş, onun fəlsəfi problemləri araşdırılmışdır;

- Qərb və Şərq Romantizminin ümumi və fərqli cəhətlərinin müqayisəli təhlili verilmiş, onların qarşılıqlı bəhrələnmələri əsaslandırılmışdır;

- fəlsəfi Romantizm ideyalarının post-klassik və postqeyri - klassik fəlsəfə məktəblərinə təsiri, neoromantizm və postromantizm dövrü filosofların dünyagörüşündə inikası araşdırılmışdır;

- Romantizm fəlsəfəsinin fəlsəfi və sosiomədəni fikrin sonrakı inkişafına təsir istiqamətlərinin müəyyənləşdirilməsinə cəhd edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** onun məqsəd və vəzifələri ilə uzlaşdırılmışdır:

- dissertasiyada Romantizm fəlsəfəsi və romantiklərin sosial - fəlsəfi görüşləri və yaradıcılığı ilk dəfə olaraq fəlsəfi nöqteyi-nəzərdən sistemli və əhatəli şəkildə tədqiq edilir;

- tədqiqat işinin əsaslı müddəalarından biri bundan ibarətdir ki, Romantizm cərəyanı mahiyyət etibarilə bütöv, vahid və tam ideya-fikir cərəyanıdır. Bu cərəyan nümayəndələrinin bədii-estetik və fəlsəfi baxışları bütün tərəflərin vəhdətdə və çoxcəhətliliyi baxımından araşdırılır;

- Romantizm cərəyanı ictimai fəlsəfi fikir tarixində Maarifçilikdən sonra spesifik əhəmiyyət kəsb edən növbəti xüsusi

mərhələ kimi əsaslandırılır;

- universal sosiomədəni cərəyan kimi səciyyələnən Romantizmin Müsəlman Şərqindəki təzahür xüsusiyyətləri və fəlsəfi səpkisi açıqlanır;
- ilk dəfə Romantizm cərəyanı vahid, bütöv sosiomədəni universal fenomen kimi əsaslandırılır və onun müxtəlif milli mədəniyyətlərdə kəsb etdiyi konkret-tarixi xüsusiyyətlər müəyyənləşdirilir;
- Romantizmin fəlsəfi aspektinin sonrakı fikir cərəyanlarına təsiri, neoromantizm və postromantizm dövrü filosoflarının dünyagörüşündə inikası araşdırılır;
- Romantizmin fəlsəfə və ictimai fikir tarixində özünəməxsus yeri, rolu və ənənələri geniş və hərtərəfli şəkildə tədqiq edilir;
- dissertasiyada Romantizmə aid ədəbiyyatda az və ya çox dərəcədə

əksini tapmış bütün köhnə stereotiplər bərtərəf edilmiş və başlıca diqqət araşdırılan məsələnin mahiyyətinin obyektiv elmi mövqedən təhlilinə istiqamətlənmişdir;

- nəhayət, elmi yenilik daşıyan cəhətlərdən biri də Romantizm cərəyanının postklassik və postqeyri - klassik fəlsəfənin formalaşmasında yeri və rolunu müəyyənləşdirməkdən ibarətdir. Bu isə, indiyə kimi Romantizmə və romantiklərin yaradıcılığına fəlsəfi yanaşmada müşahidə edilən boşluğun müəyyən qədər aradan qaldırılmasına xidmət edə bilər.

**Tədqiqat işinin nəzəri əsaslarını və mənbələri**ni Romantizm cərəyanı və bu cərəyanın fəlsəfi səpkisi ilə bağlı problemlərə toxunan yerli və xarici tədqiqatçılara, filosoflara və ədəbiyyatşünaslara məxsus əsərlər təşkil edir. Tədqiqatda nəzəri mənbələr qismində romantik yazarların özlərinin yaradıcılığı, o cümlədən, A.V.Şlegel, F.V.Şlegel, Novalis, F.V.Şellinq, Şleyermaxer, A.Səhhət, H.Cavid, M.Hadi, A.Şopenhauer, F.Nitsşe və başqalarının əsərləri çıxış etmişdir.

Tədqiqat işi həmçinin G.V.Hegel, Y.Habermas, B.Rassel, V.Vindelband və digərlərinin əsərlərində göstərilmiş ümumnəzəri müddəalara, Romantizm tədqiqatçıları tərəfindən irəli sürülmüş fikir və mülahizələrə istinad edir. Ədəbiyyat siyahısında göstərilən müəlliflərin və əsərlərin hər birində Romantizm problematikasına dair baxışlar geniş spektr təşkil edir və şübhəsiz, bu tədqiqat işinin ideyalarının əsaslandırılmasına və məzmunun zənginləşməsinə kömək edir.

**Tədqiqat işinin metodoloji əsaslarını** tarixi-müqayisəli, tarixi-

tipoloji, struktur-tipoloji, genetik-tarixi, hermenevtik, məntiqi ümumiləşdirmə metodları və digər yanaşmalar təşkil edir. Sosial, mədəni-fəlsəfi cərəyan olan Romantizmin həm elemantirist baxışdan ayrı-ayrı problemləri araşdırılmışdır, həm də ona kompleks yanaşılaraq müxtəlif tərəflərinin vahid, bütövlük kəsb edən tam sistemi öyrənilmişdir. İşdə varislik, tarixilik və konkretlik prinsiplərini ehtiva edən kompleks tədqiqat üsulundan istifadə olunmuşdur.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyətinin** aşağıdakı cəhətlərini qeyd etmək olar:

- dissertasiyada qoyulan və həllinə cəhd edilən bir sıra yeni problemlər şübhəsiz, bu istiqamətdə sonrakı tədqiqatçılar üçün araşdırma obyektinə çevrilə və perespektivdə bu səpkidən olan tədqiqatlar üçün səmərəli zəmin ola bilər;
- dissertasiyada araşdırılan bir çox problemlər gələcəkdə ictimai və fəlsəfi fikir tarixinə dair monoqrafik və kollektiv əsərlər üçün faydalı nəzəri və metodoloji əsas kimi maraq doğura bilər;
- xalqımızın özünüdərki zəminində milli mənlik şüurunun daha da zənginləşməsi, dolğunlaşması və yetkinləşməsi üçün ideya yaddaşı rolunda çıxış edə bilər;
- dissertasiyada tədqiq və təhlil edilən məsələlər fəlsəfə, fəlsəfə tarixi, ictimai fikir tarixi, mədəniyyətşünaslıq, dinşünaslıq, estetika və digər fənlərin tədrisində əhəmiyyətli rol oynaya bilər;
- nəhayət, dissertasiyanın materialları tədqiq edilən problemlə maraqlanan tələbələr, aspirantlar, müəllimlər, həmçinin tədqiqatçılar və geniş oxucu kütləsi tərəfindən istifadə edilə bilər.

**Dissertasiya işinin aprobasiyası və nəşri məsələləri.** Tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun "İctimai fikir və fəlsəfə tarixi" şöbəsində yerinə yetirilmiş, müzakirə olunmuş və müdafiəyə təqdim edilmişdir. Dissertasiyanın əsas müddəaları müəllifin müxtəlif elmi məcmuələrdə, o cümlədən ABŞ, London, Türkiyə, Polşa, Kazaxstan, Tacikstan, Belarus, Ukrayna, Rusiya və s. keçirilmiş elmi-nəzəri konfrans materiallarında və jurnallarda çap olunmuş 40-dan çox elmi məqalədə və monoqrafiyada öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu:** Tədqiqatın strukturu və həcmi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət heyətinin qərarı ilə təsdiq edilmiş "Dissertasiyaların tərtibi qaydaları"na uyğun olaraq hazırlanmışdır.

Dissertasiya işi giriş, dörd fəsil, on iki yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı və əhəmiyyəti əsaslandırılmış, problemin işlənmə dərəcəsi müəyyənləşdirilmiş, tədqiqatın məqsd və vəzifələri, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti göstərilmiş, aprobasiyası və quruluşu haqqında məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **“Romantizm mənəvi-mədəni inkişafın universal fenomeni kimi"** adlanır. Bu fəslin ayrı-ayrı yarımfəsillərində **"Romantizmin sosiomədəni universal cərəyan kimi elmi ədəbiyyatda təfsiri", "Romantizmin mənəvi mədəniyyətin müxtəlif sahələrində təzahürü"** və **"Romantizm fəlsəfəsinin tarixi nəzəri-qaynaqları"** araşdırılır.

**"Romantizmin sosiomədəni universal cərəyan kimi elmi ədəbiyyatda təfsiri"** adlanan birinci yarımfəsildə Romantizmin həm Azərbaycan sovet və postsovet məkanı və xaricdə tədqiqinə nəzər yetirmiş, xüsusilə onu fəlsəfi rakursda təfsir edən elmi ədəbiyyat təhlilə cəlb edilmişdir.

Qeyd etmək lazımdır ki, bəzən tədqiqatlarda Romantizm cərəyanı, romantizm metodu və romantika anlayışları bir-birindən fərqləndirilmir. Lakin elmi ədəbiyyatda bu istilahlar bir-birinin sinonimii deyil, müxtəlif məna kəsb edən anlayışlar kimi kifayət qədər təfsir edilmişdir. Romantizm sosiomədəni universal cərəyan, hərəkat kimi müəyyən zaman və məkan hüdudlarında konkret tarixi dövrdə mövcud olsa da, romantizm metodu bədii ədəbiyyatda qədimdən müasir dövrə qədər inkişaf yolu keçmiş yaradıcılıq üslubu, ədəbi metoddur. Romantika isə gerçəkliyə emosional münasibətin təzahürü olub, əsas etibarilə yeniyetmələrin, gənclərin və yaradıcı insanların psixoloji hisslərində, həyata baxışlarında və müxtəlif hadisələrə münasibətində ifadə olunur.

Qeyd etmək lazımdır ki, elmi ədəbiyyatda Romantizmin təfsiri və tədqiqi xronologiyası romantiklərin öz dövrlərindən başlamışdı. Ilk dəfə Romantizm nümayəndələrindən F.Şlegel (Friedrich Schlegel; 1772-1829), A.Stendal (Marie-Henri Beyle; 1783-1842), Novalis (Fridrix fon Hardenberq; 1772-1801), Cəfər Cabbarlı (1899-1934), Seyid Hüseyn (Hüseyn Mir Kazım oğlu Sadıqzadə, 1887-1938) və

digərlərinin ədəbi-nəzəri yazılarında Romantizmin estetik prinsip və meyarları, məqsəd və vəzifələri tədqiq olunmuşdur.

Romantizm cərəyanının görkəmli nümayəndəsi F.Şlegel Romantizm fenomenin etimologiyası, fəlsəfi səpkisi və bütövlükdə cərəyanın nəzəri estetik prinsiplərindən bəhs edən əsər yazmışdı. Lakin, romantik filosof Romantizm anlayışının ziddiyyətli və mürəkkəb məqamlarına diqqəti cəlb edərək yüz iyirmi beş səhifəlik bu yazısını bitirməyə müvəffəq olmamışdır. Romantik sənətkara görə, hətta Maarifçilik dövründə bir çox filosofların fikirlərində sonralar Romantizm nümayəndələri tərəfindən inkişaf etdirilən romantik məqamlar mövcud idi. J.J.Russo tərəfindən insanın emosional-hissi keyfiyyətlərinə yuksək qiymət verilməsi, I.Q. Herderdə (1744-1803) milli tarixin xalq ruhunun rəhni kimi dəyərləndirilməsi, xalq poeziyasına dair mülahizələr, E.Şeftsberinin (1671-1713) ədəbiyyatda «səmimi əxlaqi həqiqət» haqqındakı fikirləri bu qəbildəndir.

Sovet dövrü elmi ədəbiyyatında Romantizm əsas etibarilə, metod və ədəbi cərəyan kimi təhlil edilmişdir. Marksist tədqiqatlarda Romantizm cərəyanının təşəkkülü sosial-tarixi amillərlə müəyyənləşdirilir və «feodalizmdən kapitalizmə keçidin iqtisadi ziddiyyətlərinin təzahürü» kimi izah olunurdu.

Fəlsəfə və ictimai fikir tarixində bütöv bir dövrü təşkil edən Romantizmin fəlsəfi səpkisi istər Azərbaycan, istər sovet, istərsə də postsovet məkanı hüdudlarında kifayət qədər öyrənilməmişdir. Romantiklərin əsərləri klassik fəlsəfənin meyarlarına və qəliblərinə uyğun deyildir. Onların fəlsəfi ideyaları akademik fəlsəfi traktatlarda deyil, daha çox bədii əsərlərdə əks olunmuşdur. Digər tərəfdən, sovet dövründə fəlsəfə və humanitar fənlər sahəsində güclü ideoloji stereotiplər mövcud idi. Romantizm fəlsəfəsində idealizm və irrasionalizmin üstünlük kəsb etməsi, dini-mistika, panteizmə meyil, sovet dövründə aparıcı yer tutan marksizm fəlsəfəsinə və dialektik materializm prinsiplərinə uyğun gəlmirdi.

Beləliklə, Romantizm cərəyanı sovet məkanında olduğu kimi Azərbaycanda da əsasən ədəbiyyatşünaslığın tədqiqat sferasında olmuş, filosofların nəzərini az cəlb etmişdir. Romantizmin fəlsəfi rakursda tədqiqinə, əsas etibarilə, xarici elmi ədəbiyyatda təsadüf edilir. Göstərilən səpkidən tədqiqatlar ilk növbədə Henrih Hayne (1797-1856), Rudolf Haym (1821-1901) və Vilhelm Dilteyin (1833-1911) adı ilə bağlıdır. Qeyd etmək lazımdır ki, romantiklərin fəlsəfi düşüncə tərzinin

peşəkar filosoflar tərəfindən qiymətləndirilməsi də birmənalı olmamışdı. Belə qiymətləndirmələrdə "şairlik edən filosoflar" və yaxud "filosofluq edən şairlər" (Vindelband) anlayışlarından istifadə edilmişdir.

XX əsrin görkəmli filosoflarından biri olan B.Rassel (1872-1970) “Qərb fəlsəfəsi tarixi” əsərində romantizm cərəyanını XIX-XX əsrlər Qərb fəlsəfəsinin əsas istiqamətlərindən biri kimi əsaslandırışmışdır. V. Vindelband, E.Kassirer, Hegel, Xabermas fəlsəfi romantizm anlayışından istifadə etmiş və ondan fəlsəfi cərəyan kimi bəhs etmişdilər.

**"Romantizmin mənəvi mədəniyyətin müxtəlif sahələrində təzahürü"** yarımfəslində onun sosiomədəni həyatın konkret sahələrində təzahürünü və müxtəlif bilik növlərində səciyyəsi izlənilmişdir. Bu yarımfəsildə qeyd olunur ki, Romantizm tarixin konkret zaman kəsiklərində mənəvi mədəniyyətin bir çox sahələrində - bədii ədəbiyyat (Gete, Bayron, Heyne, Cavid və b.) ədəbiyyatşünaslıq nəzəriyyəsi və filologiya (V. və Y. Qrimm qardaşları, L.Tik, Vakkenroder və b.), təbiətşünaslıq (Ritter, Stefens, Gyunzen və b.), musiqi (Şubert, Şuman, Qofman, List və b.), təsviri sənət (T. Jeriko, E. Delakrua və b.), teatr (E.Kin, L. Devrient, H. Moden və b.), teologiya (Şleyermaher, I.Q. Qaman, F.H.Yakobi və b.), sosiologiya (Karleyl), fəlsəfə (Şellinq, Şleqel qardaşları, Novalis), habelə tarixşünaslıq, hermenevtika, siyasətşünaslıq, estetika və digər sahələrdə təzahür etmişdi. Qeyd etmək lazımdır ki, Romantizm cərəyanının nümayəndələrinin əksəriyyətinin yaradıcılıqlarında «universallıq», müxtəlif sahələrə dair əsərlər öz əksini tapmışdır. Hər bir romantik – Romantizm cərəyanının nümayəndəsi bir neçə istiqamətdə fəaliyyət göstərirdi. Məsələn, Novalis ədəbi-bədii yaradıcılıqla yanaşı, naturfəlsəfə, təbabət və riyaziyyatla məşğul olurdu. Tik şair, dramaturq və ədəbiyyat tənqidçisi idi, Şellinq fəlsəfə ilə poeziyanın vəhdətini yaratmağa cəhd edirdi. Ritter fizik olmaqla yanaşı, həm də gözəl şair idi. Şlegel qardaşları filologiya, sənətşünaslıq və estetika məsələlərinə diqqət yetirirdilər. Şleyermaher təkcə teologiya ilə deyil, həmçinin əxlaq problemləri ilə ciddi maraqlanırdı.

Dissertasiyada qeyd olunur ki, Romantizm cərəyanı mövcud tədqiqatlarda əsasən ədəbiyyatşünaslıq, estetika və incəsənət müstəvisində öyrənilmiş, onun mədəni-mənəvi dəyərlər sistemində yeri və qlobal sosial mədəni məkanın digər sferalarında təzahürünün araşdırılması, əsasən, diqqətdən kənarda qalmışdır. Tədqiqatçılar romantik siyasi iqtisad, romantik tarixşünaslıq, romantik dilçilik, tibbdə

romantizm, romantik təbiətşünaslıq və s. istilahlarından yeri düşdükcə istifadə etmiş, bütövlükdə isə, sosio-mədəni həyatın universal fenomeni kimi romantizmin ideoloji-siyasi sferaya təsiri, müxtəlif bilik sahələrinə nüfuzu və ənənələrini müəyyənləşdirməyə cəhd etməmişlər. Dissertasiyada qeyd olunur ki, XIX əsrin əvvəllərində Romantizm cərəyanının təsiri ilə humanitar və ictimai-siyasi elmlər sahəsində bədii, fəlsəfi, estetik məqamları ehtiva edən tədqiqat metodologiyası və ədəbi-nəzəri tənqid formalaşmışdı. Bütövlükdə, fəlsəfi problemlərə yeni baxış müstəvisi və postklassik yanaşmanın əsasını qoyan romantiklər bədii, fəlsəfi yaradıcılıqda və ədəbiyyatşünaslıqda bir çox metodoloji üsul və vasitələrin təşəkkülünə təkan verdilər. Bununla belə, bəzi romantiklər «heç bir qanun və üsluba sığmadıqlarını» (Kazımoğlu), hər hansı metodun çərçivəsi və hüdudları ilə qənaətlənmədiyini (Tik, Vakenroder) iddia edirdilər. Lakin unutmaq olmaz ki, müasir dövrdə humanitar elmlər sahəsində istifadə olunan bir çox bədii, fəlsəfi və elmi metodlar məhz romantik təfəkkürün məhsulu kimi təşəkkül tapmışdır. Romantizm cərəyanı nümayəndələri tərəfindən ilk dəfə formlaşdırılan müqayisəli-tarixi metod, müqayisəli-mifoloji metod, subyektiv-idealist metod, bədii bioqrafik, estopisixoloji-tənqidi metod, hermenevtik metod məhz bu qəbildəndir. Romantizm sosio-mədəni həyatın müxtəlif sferalarında fərqli səviyyələrdə əksini tapmışdır. Ayrı-ayrı romantiklər ona özünəməxsus səpgidə yanaşmış, bu cərəyanı spesifik subyektiv, psixoloji məqamlarla zənginləşdirmişdilər. Romantizm bədii yaradıcılıq sahəsi ilə yanaşı ictimai fikrə və cəmiyyət haqqındakı elmlərə də ciddi təsir göstərmişdir.

Tarixşünaslıqda romantik məktəblər sanki «dövrün ruhunun» təcəssümçüsünə çevrilirdi. F.V.Şellinq fəlsəfədə, F.R.Şatobrian siyasi fikirdə, F.Şleqel estetikada, V.Skott bədii ədəbiyyatda, F.Şleyermaher dini sahədə öz mühitlərini ideya təsirinə məruz qoya bilirdilər. Romantik tarixşünaslıq tarixi biliklər sferasında milli və etnik istiqamətin, milli ruhun identifikliyinin qabardılması tərəfdarı kimi çıxış edirdilər. Romantiklər mücərrəd keçmiş ilə mücərrəd gələcək arasında əlaqələr yaratmaq yolu ilə müasir «dünya üçün eskiz» hazırlamağa cəhd edirdilər. Novalis iddia edirdi ki, «uzaq keçmiş haqqındakı təsəvvürlərimiz ölüm qarşısında bizi nəhəngləşdirir. Gələcək haqqında təsəvvürlər həyata, yaşamağa sövq edir».

Romantizmin simasında humanitar və ictimai elmlərdə milli ruhun yüksəlişi baş verdi. Tədqiqatçılar öz xalqlarının keçmiş

folklorunu öyrənməyə səy göstərir, eləcə də, digər eyni mənşəli və uzaq ölkələrin tarixi keçmişlərinin müqayisəli təhlilinə cəhd edirdilər. Doğrudur, bir çox hallarda romantiklər keçmişi olduğu kimi deyil, arzuladıqları kimi izah edərək, bu zəmində nümunəvi olan olayları diqqət obyektinə gətirir və «başqa keçmişin» müasir gerçəkliyə nə qədər adekvat olduğunu müzakirə edirdilər. Bununla yanaşı, «digərinin keçmişini» (məsələn, Avropalılar üçün qədim Şərq mədəniyyəti, Şərq üçün müasir Avropa sivilizasiyası) sosial tarixi örnək kimi ideallaşdırmaq romantik tarixşünaslığa xas olan spesifik xüsusiyyətlərdəndir.

Beləliklə, Romantizm humanitar biliklər sferasına əhəmiyyətli ənənələr bəxş etməklə ictimai fikir tarixinə yeni demokratik ruh gətirmiş, siyasi fikir tarixi və tarixşünaslıq elminin formalaşması və inkişafında mühüm mərhələ olmuşdu.

Romantizm cərəyanı siyasi iqtisad və iqtisadi nəzəriyyə sahəsində də diqqətəlayiq ənənələr yaratmışdı. İqtisadçı romantiklərdə «azadlıq», «xoşbəxtlik», «rifah» kimi anlayışlar əxlaqi mahiyyət kəsb edir. Romantiklər (F.List) iqtisadi inkişafın milli xüsusiyyətlərini və millətin iqtisadi tərbiyəsi ilə əlaqəsini ön plana çəkir və «siyasi iqtisad» terminini «milli iqtisad» termini ilə əvəzləməyi təklif edirlər. Onlarin fikrincə, ölkənin zənginliyi iqtisadi gəliri ilə deyil, bu gəlirin subyekti olan insanların vəziyyəti ilə ölçülür. Ölkənin iqtisadi durumundakı yüksəlişin səviyyəsi isə hər şeydən əvvəl, «əqli kapital»la müəyyənləşir, ədəbiyyat, incəsənət, elmi ixtira və kəşflər, bütövlükdə milli mədəniyyətdəki uğurlar iqtisadi inkişafın səbəbi və nəticəsi kimi dəyərləndirilirdi.

Bütövlükdə siyasi fikir, iqtisadi nəzəriyyə və sosiologiya sahəsində Romantizm cərəyanı nümayəndələri cəmiyyətin sosial, iqtisadi və siyasi həyatını ilahi iradə, xalqın keçmiş tarixi təcrübəsi, ənənələri, milli keyfiyyətləri, iradəsi və mentaliteti ilə əlaqələndirirdilər.

Rasionalizm və zəka kultuna əsaslanan Maarifçilikdən fərqli olaraq Romantizmdə irrasionlizm və ezoterizm başlıca yer tutduğundan o, xüsusilə, mənəvi mədəniyyətin humanitar sahələrində daha sabit və qabarıq təzahür etmişdir. Bu baxımdan Romantizmin fizika, kimya riyaziyyat sahəsində ifadəsi müəyyən qədər təəccüblü görünə bilər. Lakin, təbiətşünaslığa (Ritter, Stefens, Gülzen) siraiyət edən Romantizm nümayəndələrinin təbiət elmləri və eləcədə, fizika, tibb, kimya s. tədqiqat sahələrinə aid olan məsələlərə dair görüşləri də xüsusi maraq

kəsb edir. Qeyd etmək lazımdır ki, XIX əsrdən başlayaraq tibbdə genişlənən təlqin və hipnoz vasitəsilə müalicə üsullarının tətbiqi, ilk dəfə məhz romantiklər tərəfindən dəstəklənmişdi. Məlum olduğu kimi, Novalis «Ofterdingen» əsərində təbiətşünaslığın fəlsəfi problemlərinə romantik təfəkkür tərzi ilə yanaşır. Steffens «Yerin təbii tarixinə dair» əsərində «əbədi harmoniya»nın bədii dildə elmi əsaslarının təhlilinə cəhd edir. Tik təbiətşünaslığa dair əsərlərində («Şternbald», «Serbino») mövcudatda «sirli təbii ruhun» olduğunu poetik şəkildə ifadə etməyə çalışır. XIX əsrdə təbiət elmlərində F.Şellinqin transsdental idealizm sistemi və naturfəlsəfəsi dəyərli ideya qaynağı kimi səciyyələnir.

Şellinq dinamika qanunlarının kimyaya tətbiqini təklif edir. Onun fikrincə, kimya təbiətə mexaniki baxışın əyani, empirik inkarıdır. Romantik baxış rakursundan kimyanın bir elm kimi ümumi prinsiplərinin təsnifatını verərək Şellinq kimyanın fəlsəfəsini yaratmağa cəhd edir. Romantik filosof bütün yeni ixtiraları üzvi vəhdətə gətirməklə eyniyyət fəlsəfəsinin elmi əsaslarını işləməyə cəhd edirdi. Şellinq belə hesab edirdi ki, məhz fəlsəfi zəkaya malik insanlar təbiət və tibb elmləri sahəsində uğurlara nail ola bilərlər.

Şellinqə görə, ictimai tarixi tərəqqi ilkin növbədə təbii inkişafdan qaynaqlanır. İnsan ilk başlanğıcda, onu əhatə edən dünya ilə sadəlövh vəhdətdə yaşayırdı. Ayrılıq mücərrəd mühakimənin təzahürü ilə başlamışdır. Pozitiv fəlsəfənin vəzifəsi insan ruhu ilə təbiəti yenidən vəhdət halında birləşdirməkdən ibarətdir.

Bütövlükdə, Romantizmin mənəvi mədəniyyətin müxtəlif sferalarında, habelə, müxtəlif bilik sahələrindəki təzahürü dərin izlər buraxmış və ənənələr yaratmağa qadir olmuşdu.

**"Romantizm fəlsəfəsinin tarixi nəzəri-qaynaqları"** adlanan ikinci yarımfəsildə fəlsəfi fikir tarixinin zəruri və qanunauyğun dövrü olmaq etibarilə Romantizmin özündən əvvəlki fikir cərəyanlarından ideya-nəzəri cəhətdən bəhrələndiyi qeyd olunur. Bu yarımfəsildə fəlsəfi Romantizmin kateqorial aparatının formalaşmasını və bütövlükdə romantik – fəlsəfi mədəniyyətin metodoloji təcrübəsinin tarixi konteksdə dərk etmək baxımından onun klassik irsdəki təməllərinə nəzər yetirilmişdir. Filosof - romantiklərin fəlsəfi baxışlarının təkamülündə, onların bütövlükdə mistik kimi qəbul etdikləri B.Spinoza (1632-1677) xüsusi rol oynamışdır. Spinozanın panteist fəlsəfəsində aləmin mistik vahidliyi ideyası irəli sürülürdü. Romantiklər üçün diqqətçəkən məqamlardan biri, Spinoza fəlsəfəsində canlı orqanizm olan

təbiətdə əsrarəngiz varlığın əyaniləşməsi, Tanrının empirik vasitələrlə predmetləşməsi ideyası idi. Məhz bu, məqam romantik filosoflara imkan verirdi ki, Spinoza təlimi konteksindən mifologiyanın yenidən canlandıraraq, mistisizmi fəlsəfi təfəkkürün predmeti kimi aktuallaşdırsınlar. Başqa sözlə desək, fəlsəfi romantizm üçün Spinoza panteizmi eyniyyət fəlsəfəsi, mifologiya və mistisizmin əsaslandırılmasında əsas "istinad nöqtələrindən" biri idi.

Romantizmdə J.J.Russo (1712-1778) fəlsəfəsi rasionalizm və Maarifçiliyin əleyhinə olan ilk fəlsəfə kimi dəyərləndirilmişdir. Russonun insan təbiətinin rasional tərəfi ilə müqayisədə emosional-hissi cəhətlərinə üstünlük verməsi, texniki tərəqqini (sivilizasiyanı) tənqid etməsi romantiklərin təqdirini qazanmışdı. Qeyd etmək lazımdır ki, Rassel Russonu fəlsəfi romantizmin banisi kimi dəyərləndirmişdir. Nəzəri fikrin görkəmli nümayəndələrindən olan V.F.Asmus da Russonu rasionalizmin və maarifçiliyin ilk əleyhdarı kimi təqdim etmişdir.

"Estetik mühakimə qabiliyyətinin tənqidi" əsərində romantiklərin zəruri şərtləri kimi çıxış edən bir sıra dəyərli fikirlər irəli sürmüşdü. Kantın idrakın dünyanın azad yaradıcısı olması haqqındakı ideyası Romantizm fəlsəfəsi nümayəndələri tərəfindən bütövlükdə qəbul olunmuşdu. Romantiklər də belə hesab edirdilər ki, sənətkarlar adi təqlidçi deyil, dünyanın azad yaradıcısıdırlar. Romantiklərə görə, dünyanın elmi mənzərəsinin yaradılması yaradıcılıq yox, "quraşdırmadır". Yaradıcılığın quraşdırmadan fərqi ondadır ki, yaradıcılıqda ruh üzvi fəaliyyət subyekti kimi çıxış edir, quraşdırma prosesində isə dünya mənzərələri hissələrlə yaradılır. Romantiklər həmçinin, Kant üçün səciyyəvi olan estetik qabiliyyətin idarki funksiyasının məhdudlaşdırılmasını əlverişli hesab edir və ona dini-mistik xarakteri verirlər. Məsələn, Novalis qeyd edir ki, yalnız poetika vasitəsi ilə dahi sonlu və sonsuz olanın daxili ümumiliyini, insan və universumun qarşılıqlı münasibətinin sirrini açır. Novalis üçün sözsüz, hissi qavranılmayan (Kantda nəzəri ağlın obyekti kimi çıxış edə bilməyən) məhz bədii təcrübədə dərk olunur. Məlumdur ki, F.Şlegeldə zövq mühakiməsi həqiqətlə əlaqələndirilir, incəsənət isə ruhun obyektiv-ümumi olanın mahiyətini ifadə etmək imkanı baxımından şərh olunur. F.Şlegel (1772–1829) Fixte fəlsəfəsini ardıcıl idealizm "xalis fəlsəfə", «Mən»in özünüdərkinin nəticəsi kimi səciyyələndirir. Mütləq özünü dərketmə prosesində "Mən"in fəaliyyətinin yaradıcılıq prinsipini gerçəkləşdirir. O, yaradıcılıq prosesində öz-özünü dərk edir. Bu mənada

Fixtedə özünüdərk yaradıcılıq aktıdır, çünki "Mən" öz-özünü məhz onda yaradır. Romantizm Fixte fəlsəfəsini "yaradıcı ruhun azadlıq" konsepsiyası kimi qəbul etmişdir. Bununla yanaşı, Romantizm fəlsəfəsində Fixtenin ifrat subyektivizmi və rasionalizmi qəbul edilməmişdir. Fixte fəlsəfəsinin çıxış nöqtəsi «Mən» anlayışı və «Mən»in muxariyyəti tezisi idi. Onun ardıcıllarından olan Şellinq Fixtenin bu tezisini təhlil edərək göstərir ki, Fixte üçün «Mən» hər şeydir: «Əgər Kant idrak prosesində «Mən»ə onun obyektə münasibəti nöqteyi-nəzərindən yanaşırdısa, Fixte «Mən»i vahid reallıq hesab edirdi, ona hər şeyə qadir yaradıcı qüvvə kimi baxırdı. O, deyirdi ki, «Mən» mütləq subyektivdir, mütləq şəkildə fəaliyyət prinsipidir»

Mən-in universal prinsipi "transendental-bədii Məndir" və bu da "bizim daxilimizdə sonsuz-azad fəaliyyətin mühərriki" kimi çıxış edir. Bu ideya ilk dəfə Kant tərəfindən irəli sürülmüş, daha sonra isə Fixte təlimində "təxəyyülün məhsuldar qabiliyyəti" ideyası ilə əsaslandırılmışdır. Romantizm fəlsəfəsində bu fikirlər "dahinin bədii fantaziyasına" müncər olnumuşdur. Yaradıcılıq təfəkkürün yox, hisslərin, təəssüratların, həvəsin və fantaziyaların müəyyən etdiyi estetik dərketmə vasitəsilə həyata keçirilir. Fixtenin "Elm təlimi"-ndəki "intellektual intuisiya" anlayışı romantizmdə "Allahıın əşyalarda estetik dərk edilməsi" anlayışına, təbiətin (Universumun), onun elm üçün əlçatmaz olan dərin mahiyyətinin dərk edilməsinin ali forması kimi çıxış edən intuisiyaya çevrilir.

Romantiklər təbiəti obyektiv reallıq kimi qəbul edərək, onu estetikləşdirmək və mistikləşdirməklə yaradıcılıq subyektinə də başqa nöqteyi- nəzərindən yanaşırdılar. Yaradıcılıq subyekti ("Mən") romantiklərdə Fixte təlimi ilə müqayisədə fərqli mahiyyət kəsb edir. O, alim və ya filosofdan çox, rəssam, şair və dahidir. Bu fərqlər Fixte rasionalizminin romantiklər tərəfindən bərtərəf edilməsi ilə şərtlənir. Fixte ruhun mütləq yaradıcı gücünün olduğunu iddia edərək yaradıcılğı təfəkkürün zəkalı fəaliyyəti ("intellektual dərketmə"), dünyanın bütün rəngarəngliyini özündən kənarda yaradan "Mənin" xalis özünüdərki kimi başa düşürdü. Romantiklər Fixtenin mütləq Mənini dahinin (rəsam, bəstəkar, şair və s.) fərdi yaradıcılıq dühası ilə dəyişməklə fəlsəfi təfəkkürün bədii yaradıcılığa siraiyyətinə cəhd göstərdilər. Təsadüfi deyildir ki, E.Kassirer Fixteni romantik hesab etmişdir. Y.V.Jirmunski də "Alman Romantizmi və müasir mistika" əsərində romantiklərin Fixte ideyalarından nəzəri cəhətdən qaynaqlandığını əsaslandırmağa cəhd

göstərmişdir.

Məlumdur ki, bir çox tədqiqatçılar Alman klassik fəlsəfəsinin görkəmli nümayəndəsi Q.V.F. Hegeli (1770-1831) Romantizmin nümayəndəsi kimi təqdim edirlər. Yena məktəbi ilə sıx əlaqələr saxlayan Hegelin görüşlərini romantizm fəlsəfəsi baxış bucağından nəzər yetirmək məqsədəuyğun olardı.

Hegel fəlsəfəsinə görə, gerçəklik hadisələrində substansiya deyil subyektin öz fəaliyyəti təzahür edir. Onun fikrincə, bütün mövcudatın ilkin mənbəyi və səbəbi mütləq ideya və dünya ruhudur. Bu mənəvi, ilkin başlangıc, - mütləq ideya güya insandan kənarda və ondan asılı olmayaraq obyektiv surətdə mövcuddur və o, bütün təbiət və cəmiyyət hadisələrini yaradır və müəyyən edir. Hegelin fikrincə, təfəkkür bütün şeylərin daxili mahiyyətini təşkil edir, təfəkkürün məzmunu yalnız ona xas olan mahiyyətdir. Hegelə görə, ruhun öz imkanlarını realizə etmək gerçəkliyi və özünüdərk fəaliyyəti üç mərhələdən keçir; varlıq – özündə, varlıq kənarda, digəri üçün, varlıq özünə qayıdış və özü üçün. Romantizmin təsirlərinə məruz qalan filosof incəsənətə ruhun ilkin tarixi formasını gerçəkləşdirən vasitə kimi baxırdı. Romantik sənəti xristian mədəniyyətinin nümunəsində izah edən Hegel onu yaradıcı Mütləq Ruhun sonsuz imkanlarının reallaşdırılması üsulu olan ideal vasitə kimi dəyərləndirirdi. O, qeyd edirdi ki, romantizmdən sonra Almaniyada fəlsəfə incəsənətlə dinin vəhdəti kimi anlaşılmalıdır. Hegel fəlsəfəsi ilə Romantizm fəlsəfəsi arasında qarşılıqlı bəhrələnmə aşkar sezilir. Hətta müşahidə və paralellər apardıqda Hegelin fəlsəfi romantizm nümayəndələrindən daha çox şey əxz etdiyi məlum olur. Lakin öz fəlsəfi ideyalarını bədii yaradıcılıqda fraqmetar şəkildə ifadə edən romantik sələflərindən fərqli olaraq Hegel öz fəlsəfi mühakimələrini akademik səviyyədə sistemli olaraq irəli sürür, əqli nəticə və elmi qənaətlərinin inandırıcılığını artıran dəlil və nümunələrə diqqət yetirir. Bir sözlə, fəlsəfi romantizmdən bəhrələnən Hegel ruhun özünü özgələşdirmə prosesinin dialektik sistemini əsaslandırır və qanunauyğunluqlarını müəyyənləşdirir.

Məlum olduğu kimi, Kant və Fixte obyektiv dünyanın subyektin transsendental qabiliyyətlərindən asılılığını əsaslandırmağa cəhd edirdilər. Hegel isə varlığın əsasının obyektiv düşünən substansiyadan ibarət olduğunu iddia edirdi. Fixte Hegel təlimində subyektin substansiyaya, Hegeldə isə substansiyanın subyektə çevrilməsi ideyası Romantizm fəlsəfəsində obyektlə subyektin vəhdəti məsələsini

aktuallaşdırmışdır.

Empirik materiallara əsaslanaraq demək olar ki, fəlsəfi romantizmin estetik prinsipləri və problematikası fəlsəfi fikrin tarixi məntiqindən süzülərək, klassik irsin ənənələri fonunda, onların ideya-nəzəri təcrübəsi əsasında formalaşmışdır. Bir sözlə, Romantizmin fəlsəfəsi yeni və özünəməxsus olması ilə yanaşı dərin köklərdən rişələnmişdi və klassik fəlsəfi ənənələrdən qaynaqlanmışdı.

**"Romantizmin fəlsəfi problemləri"** adlanan ikinci fəsil dörd yarımfəsildən ibarətdir.

Bu fəslin **"Romantizm fəlsəfəsində ontoloji problemlər"** və **"Romantizm fəlsəfəsində qnoseoloji məsələlər"** adlı yarımfəsillərində qeyd olunur ki, məsələnin yuxarıdakı şəkildə ayrılması şərti xarakter daşıyır və konkret kontekslərdə daha aydın təsəvvürünə xidmət edir. Çünki, Romantizm fəlsəfəsində subyekt və obyekt, ontologiya və qnoseologiya arasındakı fərq aradan götürülür, prinsip etibarilə obyektlə subyektin, varlıq və təfəkkürün eyniyyəti əsaslandırılır. Digər tərəfdən, Romantizm fəlsəfəsi, əsas etibarilə, varlıq problemlərini qnoseoloji aspektdə həllinə cəhd edir Bu baxımdan şərhimizdə fərqləndirəcəyimiz ontologiya və qnoseologiya məsələləri arasındakı bölgü şərtidir və problemin daha aydın açıqlanmasına və qavranılmasına xidmət edir. Romantiklərdə təbiət estetikləşdirir, bədii - fəlsəfi mənimsəmənin obyektinə çevirilir. Onlar bütün yaradıcılıq və sənət növlərinin ilkin təbii əsaslardan rişələndiyini qeyd edir. Romantizm fəlsəfəsində birinci təbəti yaradan ilə ikinci təbiəti yaradan arasında dialektik əlaqələr mövcuddur. Birincisi (yəni Tanrı, ilahi yaradan) ikinci vasitəsilə özünü görür, yaradıcılıq imkanlarını dəyərləndirir, özünü özgələşdirməyin daha münasib üsullarını kəşf edir. Ikincisi (sənətkar) isə, bir çox hallarda daxilən ali yaradıcılığın təqlidçisinə çevrilərək seçilmiş şəxsiyyət, elçi kimi kütlə iradəsinin fövqündə durur. Sənətkar emprik ilə mücərrədin, ümumi ilə təkcənin, idealla gerçək olanın arasında vasitəçi rolunu oynayır. Sənətdə mücərrəd məzmun konkretləşir, «sonsuz» olan «sonlu» kimi təzahür edir. Çünki bədii yaradıcılığın əsasını təşkil edən fəhm, təxəyyül vasitəsilə hissi və rasional təfəkkürün dərk edə bilmədiyi qeyri-maddi varlığı, ruhi olanı sənət əsərində empirikləşdirmək və empirik hisslərin, təfəkkürün mühakiməsinə vermək mümkündür.

Bütövlükdə, Romantizm fəlsəfəsində varlıq mütləq dühanın dahiyanə əsəridir. O, son dərəcə əhatəli və universal mahiyyətə malikdir. Varlıq mövcud olan real və mövcudluğu təsəvvür edilən irreal

aləmi, maddi və ideal, obyektiv və subyektiv gerçəkliyi ehtiva edən ən ümumi kateqoriyadır. Romantizmdə varlıq universal və canlı orqanizm kimi təsvir edilir. Bütün şeylər, proseslər, keyfiyyət, əlaqə, münasibət, mif, əfsanə, fantaziya, ictimai, siyasi ideologiya və institutlar, birinci və ikinci təbiət, obyektiv və fərdi mənəvi və.s. varlığın müxtəlif növ və səviyyələrini təşkil edir. Varlığın ən mükəmməl formaları isə təbiətdə, insanda və sənət əsərlərində öz ifadəsini tapır. Romantizm fəlsəfəsində varlıq daim öz-özünü formalaşdırma, təkmilləşdirmə, fasiləsiz inkişaf prosesindədir. Bu prosesdə ziddiyyətlər mütləq vəhdətə gətirilir, təbii kamillik, gözəllik, ahəngdarlıq və bütövlük bərpa olunur. Romantizmin varlıq təlimində həqiqət və gözəllik birləşir, real və obyektiv olanlar idealda, ideal olanlar gerçək olanlarda öz ilkin bütövlüyünə qovuşur. «Subyektiv və obyektiv olanın mütləq fərqsizliyi» yəqinləşir, subyekt və obyekt mütləq sonsuzda eyniyyət təşkil edir, şüuri ilə qeyri şüurinin, təbiət ilə ruhun vəhdəti reallaşır, idealizm və realizm qovuşur. İncəsənət və fəlsəfə arasında həd dəf edilir. Bədii yaradıcılığa "geniş kosmik əsas" verməklə "estetiklik prinsipi" və estetika romantizmdə ontoloji status əldə edir və sintetik biliyin prinsipi kimi çıxış edir.

Yarımfəslin əvvəlində qeyd etdiyimiz kimi, Romantizmdə XVII-XVIII əsrlər yeni Avropa fəlsəfəsində təfəkkür və varlığın qarşı-qarşıya qoyulması meyli, ontoloji və qnoseoloji dualizmin dərinləşməsi Kantdan başlayaraq, Hegel də daxil olmaqla bütün romantik filosoflar tərəfindən tənqid edilirdi. Romantizm fəlsəfəsi nümayəndələri təfəkkür ilə varlığın, subyekt ilə obyektin dualizmini onların eyniyyəti prinsipini, vəhdəti-vücud mühakiməsini irəli sürməklə aradan qaldırmağa səy göstərmiş və şüur və varlığın, ruh və təbiətin fundamental eyniyyətini əsaslandırmağa cəhd etmişdilər.

Romantizm fəlsəfəsində irrasionallıq və ezoterizm rasional təfəkkürün məntiqi olaraq əvəzlənməsinin nəticəsidir. Digər tərəfdən, irrasionallıq anlayışı rasional fəlsəfi idrak imkanlarının hədlərinin aşmaq zərurəti kimi çıxış edir. Romantizm açıq şəkildə antisientizm kimi çıxış edir. Romantik antisientizm Bekon və Dekartdan başlamış, Hegelə qədər klassik fəlsəfənin elmilik ideyalarına və xüsusilə, XIX əsrdə fəlsəfəni elmləşdirən pozitivizmə qarşı yönəlmişdir.

Nəhayət, qeyd etmək lazımdır ki, Avropa postklassik fəlsəfəsinin ilk forması olmuş Romantizm bir tendensiya kimi müxtəlif fikir cərəyanları və filosofların dünyagörüşündə inkişaf etdirilirdi. Fəlsəfi problemlərin klassik əsaslarının nəzərdən keçirilməsi demək olar ki,

romantik təfəkkürdə əsaslandırılmış üç təməl prinsipdə daha aydın ifadə olunmuşdu: irrasionalizm, subyektlə obyektin fundamental eyniyyəti və tarixilik prinsipləri. Romantizm cərəyanının fəlsəfi mülahizələrinin nəzərdən keçirilməsi belə qənaətə gəlməyə əsas verir ki, romantiklərin öz yardıcılığında başlıca diqqət yetirdikləri ideyalar - insan ruhunun yaradıcı fəallığı, estetiklik, subyektin estetikləşdirilməsi, tarixilik ideyalarıdır. Romantizm fəlsəfəsində panteist, estetik və mifoloji mahiyyət kəsb etmiş romantik mədəniyyət konsepsiyası formalaşmışdır. Lakin, bu konsepsiyanı bitkin sistem kimi deyil, çoxsaylı esselər, fraqmentlər, aforizmlər, tarixi, fəlsəfi traktatlar və bədii əsərlərin hərtərəfli tədqiqi əsasında təşəkkül tapmış görüşlər sistemi kimi dəyərləndirmək olar.

**"Romantik teosofiya"** adlanan üçüncü yarımfəsildə Romantizm nümayəndələrinin Tanrıya baxışları tədqiq olunur.

Qeyd etmək lazımdır ki, Romantizmdə Tanrı və etiqad məsələləri fəlsəfi təfəkkürün tədqiqat obyekti kimi aktuallıq kəsb edir. Romantizm fəlsəfəsində Mütləq varlıq teologiyadakı Allah obrazının tam prototipi deyildir. O, ali fəlsəfi kateqoriya kimi mütləq həqiqət, ilahi sevgi, ali ədalət, harmoniya, ideal gözəllik, mənəvi tamlıq kimi mühüm məhfumları ehtiva edir.

Məlumdur ki, Maarifçilik dövründə cəmiyyətdə din öz əvvəlki nüfuzunu itirmişdi. XVIII əsrin 80-ci illərində dini ehkamların tənəzzülə uğraması bir çox romantiklərin müəyyən tərəddüdlər yaratmışdı. Bu dövrdə dini ehkamların böhrana uğramasına baxmayaraq romantiklər Tanrıya inamı zəruri hesab edirdilər. Çünki çoxcəhətli dünyanın sonsuz mürəkkəbliyi və fraqmentar «açılışı», yaradılışın nizamlı dövranı, həyatın sirli hadisələri və mistik determinizmi romantiki xürafata inanmağa sövq edir. Fövqəl «sirrlərin» dərkində insan idrakının gücsüzlüyü təbiət hadisələri və proseslərində ilahi sifatların olduğuna inam yaradır. Romantiklər bu səbəbdən panteizmə meyil göstərirdilər. Lakin bu pantezm çox vaxt ateizm təsiri bağışlayırdı. Emprik materiallara əsasən, romantikləri nə panteist, nə teist, nə də atest kimi öz mövqelərində israrlı olduğunu iddia etmək olmaz. Romantiklər öz şəxsi etiqadlarında əsas etibarilə, yeretik – bidətçi təəssüratı yaradırlar. Çünki, onlar Tanrıya hər hansı dini ehkamların tələbləri, imperativləri çərçivəsində deyil, özlərinin istədikləri şəkildə etiqad edir, ilahi inamda könül rahatlığı tapmağa cəhd edirdilər. Inanan insanın dini təsəllisi və yaşam şərtlərini özü üçün əlverişli edərkən əxlaqi dəyərlərin ziddinə

getməməsi, nəhayət etibarilə, humanizm prinsiplərinə xidmət edir. Bu baxış müstəvisindən romantiklərin Tanrıya münasibəti əsas etibarilə əxlaqi, psixoloji mahiyyət kəsb edir. Romantiklər tərəfindən qaldırılmış dini fəlsəfi problemlər C.Kerkeqor (1813-1855), L.N.Tolstoy (1828-1910), F.Nitsşe (1844-1900), M.Haydeger (1889-1976), K.Yaspers (1883–1969), Q.Marsel (1889-1973) və digərləri tərəfindən fəlsəfi tədqiqatın predmetinə daxil edildilər.

Romantizm fəlsəfəsində tədqiq olunan tanrı və insan münasibətləri, etiqad, inam məsələləri sonradan bir çox filosofların dünyagörüşündə köklü dəyişiklik yaradır və bir çox dini – mistik və fəlsəfi cərəyanların, müasir teosofiyanın yaranmasının səbəbi kimi dəyərləndirilir.

Dördüncü yarımfəsil **"Antropoloji məsələlərə romantik-fəlsəfi münasibət"** adlanır. Romantizm fəlsəfəsində antropoloji problemlər ən mühüm fundamental məsələ kimi tədqiqata cəlb olunur. Romantiklər insanı təkrarolunmaz fərd kimi konkret tarixi məkandan ayırır və onu bütün sosial rollardan təcriddə öyrənməyə cəhd edirlər. Romantizm fəlsəfəsində insan sosial, bio-fizioloji deyil mücərrəd fəlsəfi, mənəvi və psixoloji varlıq kimi tədqiqata cəlb olundu. Romantzmdə şəxsiyyət sosial, psixoloji, mənəvi və hətta fizioloji cəhətdən mükəmməl insandır. Əksərən romantik sənətkarın, müəllifin öz fərdi məninin ifadəçisinə çevrilən şəxsiyyət tipi passiv kütlə şüurunun bir elementi, çoxluqdan biri deyil. O, öz iradəsini əksəriyyətə qarşı qoymağı bacaran, cəmiyyətə fərdi tələbat və istəklərini diktə edən, ictimai proseslərin məcarasını yönləndirən, fəlsəfi düşünən, tarixin obyekti olmaqdan çox subyekti kimi özünü təsdiq edən sosial, siyasi, mənəvi, psixoloji bir sözlə hərtərəfli inkişaf etmiş universal varlıqdır. Bu yarımfəsildə ayrı-ayrı filosof romantiklərin antropoloji görüşlərinə istinad edilir, iqtibaslar şərh olunur. Fəlsəfə tarixində insan varlığının tədqiqi bu və ya digər dərəcədə həmişə diqqət mərkəzində olmuşdur. Lakin Novalis qədər insan varlığını sevərək tədqiq edən, ona ehtiram bəsləyərək öyrənən filosofa təsadüf etmək çətindir. Novalis fəlsəfəsində insan müqəddəs varlıq olub Tanrı kimi pərəstişə və səcdəolunmaya layiqdir «Dünyada yalnız bir məbəd mövcuddur və bu insan bədənidir. Bu yüksək obrazdan müqəddəs heç bir şey yoxdur. İnsan qarşısında səcdəyə getmə canlı surətdə onun müqəddəsliyinin qəbul edilməsidir. İnsan bədəninə toxunarkən səma ilə təmasda olursan».

Novalis insanın möhtəşəm varlıq kimi pərəstişə layiq olduğunu

sübut etməyə cəhd edirdi. Bu cəhdlərin müqabilində o insanı öləri, sonlu varlıq kimi qəbul edə bilməzdi. Filosof insanın ölümünü yoxluq kimi deyil, «o biri dünyaya köçmə», dünyasının, yaşam formasının, şəklinin dəyişdirilməsi kimi dəyərləndirir. Novalisin fikrincə, «Ölüm bizim həyatımızın romantikləşdirilmiş prinsipi, ölümdən sonrakı həyatdır. Həyat ölüm vasitəsilə güclənir». Novalisə görə, «o biri dünyanı» yaşadıqdan sonra biz həyatın əsl mahiyyətini anlaya bilərik. O yazırdı: «Buradakı həyata transsendent baxış hələ bizi irəlidə gözləyir, yalnız ölümdən sonra bu dünya bizim üçün özünün həqiqi mahiyyətini açacaqdır». Novalisin ölümə romantik-fəlsəfi baxışının mahiyyətində vəhdəti-vücüd təlimi dayanır. Hər şey vəhdətdədir; həyat və ölüm eyni şeydir. Novalis hesab edirdi ki, həyat və ölüm bölgüsü kifayət qədər şərtidir: ölülər yarı canlıdırlar, canlılar isə yarı ölüdürlər.

Romantiklər insana ayrıca fərd, tarixin və bütövlükdə dünyanın subyekti kimi yanaşmaqla, insanı başlıca problem kimi tədqiq edən fəlsəfi cərəyanların ideya mənbəyinə çevrildilər. Romantik filosoflar XIX-XX əsrlər fəlsəfəsinin antropoloji əsaslarının formalaşmasına bilavasitə təsir göstərdilər.

Dissertasiyanın üçüncü fəsli **"Şərqdə Romantizmin sosiomədəni cərəyan kimi inkişaf xüsusiyyətləri və fəlsəfi səciyəsi"**nə həsr olunur.

Bu fəslin ayrı-ayrı yarımfəsillərində **"Şərqdə Romantizm cərəyanının səciyyəsi və fəlsəfi əsasları"**, **"Azərbaycan Romantizminin fəlsəfi problemləri"**, **"Romantizmdə «Şərq» və «Qərb» dixotomiyası"** araşdırılır.

**"Şərqdə Romantizm cərəyanının səciyyəsi və fəlsəfi əsasları"** yarımfəslində qeyd olunur ki, Romantizm cərəyanı mövcud olduğu ölkələrin hamısında - Amerika, Avropa, Yaxın, Orta, Uzaq Şərq və s. ictimai-mədəni həyatın və milli intibahın tərkib hissəsinə çevrilərək ideoloji və siyasi həyata sirayət etmiş, mənsub olduğu millətin mənəvi mədəniyyəti zəminində inkşaf etmiş, təmsil etdiyi ölkənin mövcud gerçəkliyinin doğurduğu problemlərə spesifik, fəal emosional münasibəti ilə seçilmişdir.

Bəzi tədqiqatçılar iddia edirlər ki, Romantizm sosiomədəni hərəkat kimi, yalnız Avropa gerçəkliyinə aid olan hadisədir. Onların fikrincə, Romantizmin sosiomədəni cərəyan, universal hərəkat olmaq etibarilə XVIII - XIX əsrlərdə Avropa və Amerika mədəniyyəti sferasında geniş əhatəli inkişaf etdiyi halda, Şərqdə klassik ədəbiyyatda qədim dövrdən təşəkkül tapan ədəbi metod olmuşdur. Bu yarımfəsildə

xüsusilə Türkiyə romantizmi ilə Azərbaycan romantiklərinin qarşılıqlı bəhrələnmələri, Cübran və Reyhaninin romantik fəlsəfi görüşləri tədqiq olunur.

Bütövlükdə, Qərbdə olduğu kimi Şərqdə də Romantizm rasionalizmin böhranına reaksiya olaraq meydana gəlmişdir. Şərq romantikləri də sələfləri kimi dünyanın, insanın və cəmiyyətin idrakında üstün yeri irrasional momentlərə – təxəyyülə, dini vəhyə, intuisiyaya və s. verirlər. Lakin, Şərqdə Maarifçilik və Romantizm cərəyanları yanaşı mövcud olduğundan Qərbə nisbətən Şərq Romantizmində maarifçilik elementləri özünü daha bariz göstərir. Şərqdə fəlsəfi Romantizm nümayəndələri irrasional idrak vasitələrini önə çəkmələrinə baxmayaraq özlərinin ideal cəmiyyətlərinin qurulmasında aparıcı rol oynayacaq mükəmməl şəxsiyyət tipinin yaradılmasında elm, təhsil və maarifin mühüm rola malik olduğunu müntəzəm surətdə qeyd etmişlər.

Romantizm cərəyanına xas olan ümumi qanunauyğunluqları nəzərə alaraq Şərq və Qərb Romantizmi arasında muəyyən problem və məsələlərin fəlsəfi həllində paralellərin mövcudluğu aydın nəzərə çarpır. Lakin, bununla belə, müxtəlif ölkələrdə təzahür edən Romantizm yerli həyat və düşüncə tərzini, dünyanın qavranılması və mənimsənilməsi üsullarını, xalqın tarixi inkişaf yollarını, adət və ənənələrini, milli mənşəyini, dil və mədəniyyətini inikas etdirməkdə özünəməxsus rol oynamışdı. XIX əsrin ikinci yarısında formalaşan Şərq Romantizminin Avropa Romantizmindən fərqini də, məhz bu istiqamətdə araşdırmaq vacibdir. Romantizm Şərq regionu gerçəkliyinin zəruri ictimai-tarixi inkişaf tələblərinə, xalqın azadlıq uğrunda mübarizə yollarının axtarışı zərurətinə, milli mənlik şüurunun təşəkkülü üsullarının müəyyənləşdirilməsinə məntiqi cavab kimi təşəkkül tapmışdır.

Şərq Romantizmi barədə mülahizələrimizi ümumiləşdirərək demək olar ki, bütövlükdə bu regiondakı cərəyan üçün universalizm, bəşərçilik və vətənpərvərlik hisslərinin vəhdəti, real ictimai varlıqdan narazılıq və sosial utopiyanın irəli sürülməsi, fəlsəfi fikirlərin bədii vasitələrlə ifadəsi, təbiətə mistik-fəlsəfi yanaşma, dövrün milli, siyasi, ideoloji istiqamətin müəyyənləşdirilməsi, vahid sənət konsepsiyasının mövcud olmaması, mənəvi mədəniyyətin bütün sferalarına bu və ya digər dərəcədə nüfuz etmə və bu kimi digər cəhətlər səciyyəvidir. Şərq Romantizminə xas olan milli özünəməxsusluqları bərtərəf etdikdə, onu bütövlükdə vahid dünya Romantizminin tərkib hissəsi, və elementi kimi dəyərləndirmək olar.

Yuxarıdakı mülahizələri yekunlaşdıraraq, qeyd etmək olar ki, Qərb və Şərq Romantizmində fəlsəfi problematikanın təfsir və tədqiqində ümumi paralellər və kəsişən məqamlar mövcuddur. Məkan-zaman fərqlərinə baxmayaraq Şərq və Qərb mənəvi mədəniyyətinin inkişafında müəyyən mərhələ kimi səciyyələnən Romantizm ictimai və fəlsəfi fikir tarixinin bütöv və tam ideya cərəyanıdır.

**"Azərbaycan Romantizminin fəlsəfi problemləri"** adlanan ikinci yarımfəsildə qeyd olunur ki, Azərbaycanda romantizm cərəyanı nümayəndələrinin irsi fəlsəfi problemlərin əhatəliliyi və genişliyi ilə fərqlənir. Hüseyn Cavid, Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla bəy Divanbəyoğlu və digərləri toxunduqları fəlsəfi problemləri bədii-romantik təhlil yolu ilə araşdırırlar. Aləmin bədii-obrazlı mənimsənilməsinə üstünlük verən Azərbaycan romantikləri fəlsəfi problemləri bədii yaradıcılıqda və poeziyada tədqiq etməyə cəhd edərək, kainat sirlərini dərk etməyə, aləmin yaranmasında və inkişaf qanunauyğunluqlarındakı hikməti anlamağa çalışırdılar. Qeyd etmək lazımdır ki, Avropadakı sələflərində olduğu kimi Azərbaycanda romantizm cərəyanı nümayəndələri Məhəmməd Hadi, Hüseyn Cavid, Cəfər Cabbarlının əsərlərində də Allah ortadoksal dini təlimlərdən fərqi olaraq fəlsəfi təfəkkürün predmetinə çevrilir. Lakin bu, mistik fəlsəfi düşüncələr, dini sorğular sürəkli xarakter almır, və yuxarıda qeyd etdiyimiz kimi, əsasən islam dininin üstünlüklərinin, əxlaqi mahiyyətinin təqdiri ilə sonuclanır.

Beləliklə, Azərbaycan romantiklərinin yaradıcılığı fəlsəfi mühakimələrin dərinliyi ilə diqqəti cəlb edir. Varlıq, idrak, şəxsiyyət, tanrı haqqındakı fikir və mülahizələri romantik-fəlsəfi mahiyyət kəsb edir. Onların varlığa dair fəlsəfi ideyalarında panteizm ideyası xüsusilik təşkil edir. Lakin əksər hallarda panteizm ideyası teizmə doğru istiqamətlənir. Universal inkişaf, qarşılıqlı əlaqə və təsirə dair mülahizələrdə isə bəzən materialist mühakimələr nəzərə çarpır. Azərbaycanda Romantizm cərəyanı nümayəndələrinin qnoseoloji fikirlərində irrasioalizmə və ezoterizmə meyl üstünlük təşkil etsə də, rasional elmi biliklərin təbliği də mühüm yer tutur. Bir cəhəti qeyd etməliyik ki, bütövlükdə, Şərqdə olduğu kimi Azərbaycan Romantizmində də maarifçilik elementləri Qərbə nisbətən özünü daha çox təzahür etdirir. Irrasional idrak vasitələrini ön plana çəksələr də Şərq və o cümlədən, Azərbaycan romantikləri sosial utopiyaya əsaslanan cəmiyyətin təşkilində və belə cəmiyyətin yaranmasında rol

oynayan mükəmməl şəxsiyyət tipinin yaradılmasında elmə, təhsilə və maarifə böyük əhəmiyyət verirdilər.

Üçüncü fəslin müvafiq yarımfəslində **"Romantizmdə «Şərq» və «Qərb» dixotomiyası"** araşdırılır. Gəlinmiş nəticə bundan ibarətdir ki, Azərbaycan romantiklərinin Qərbə münasibəti Avropa mədəniyyətindən bəhrələnməklə, Azərbaycanda milli inkişafa, ictimai tərəqqiyə nail olmaq, milli və bəşəri dəyərləri əlaqələndirmək istəyinin ifadəsi idi. Azərbaycan Romantizmində milli vətənpərvərliyi özündə ehtiva edən Şərqçilik heç də Qərbləşmə meyillərinə qarşı yönəlməyib, əslində mənəvi dəyərlərin sıxışdırılması və tənəzzülünün qarşısını almağa istiqamətlənir. Qərbçilik meyilləri isə ictimai tərəqqinin hədəflərini sivil bəşəri dəyərlərlə uzlaşdırmaq tələbatından yaranıb və bəsit təqlidçilik deyil, məhz rasional-konsentrativ münasibətin nəticəsi idi. Qərbçilik meyillərində birtərəfli inkişafın neqativ nəticələrinin aradan qaldırılmasına və pozitiv tərəflərin isə perspektivlərini müəyyənləşdirməyə cəhd edən romantiklər milli inkişafı ümumbəşəri meyarlarla dəyərləndirərək Qərbi bir ideal, ideoloji hədəf kimi qavrayırdılar.

Xalqların ədəbi mədəni əlaqələrinin qarşılıqlı bəhrələnməsi, mənəvi təcrübə mübadiləsi bəşəri irsin zənginləşməsinə təkan verir. Müasir multikulturalizm və qloballaşma prosesləri milli sərvətlərin təcrid edilmiş halda deyil, onların mübadiləsi zəminində inkişafını stimullaşdırır. Qlobal inkişafda milli və bəşəri dəyərlərin inteqrasiyası, Şərq və Qərb dixotomiyasının uzlaşmasını zərurətə çevrilir.

Dissertasiyanın dördüncü fəsli **"Fəlsəfə tarixində Romantizm meyilləri"** adlanır. Bu fəslin ayrı-ayrı yarımfəsillərində romantizmin fəlsəfi fikrin sonrakı inkişafına təsiri araşdırılır.

Dördüncü fəslin **"A.Şopenhauer və F.Nitsşenin fəlsəfi irsində Romantizm ənənələri"** adlanan birinci yarımfəslində bəhs olunan bu filosofların yaradıcılığında romantizm fəlsəfəsi təsirləri təqdiq edilir.

Tarixi fəlsəfi irsin bir sıra problemlərinin çağdaş nəzəri - metodoloji prinsiplər və meyarlar əsasında yeni baxış müstəvisindən tədqiqi və təshihi zərurəti yaranmışdır. Müasir dövrün mövcud tarixi-mədəni və ictimai-siyasi gerçəklikləri humanitar fikrin görkəmli simalarının, o cümlədən, Alman fəlsəfəsinin görkəmli nümayəndələrindən olan A.Şopenhauerin (1788-1860) və Fridrix Vilhelm Nitsşenin (1844-1900) yaradıcılığını Romantizm fəlsəfəsi dəyərləri konteksində dəyərləndirmək və təhlil etmək imkanını

reallaşdırır.

Şopenhauerin fəlsəfi görüşləri mahiyyət etibarilə Romantizm ənənələrindən qaynaqlanmışdır. Onun fəlsəfi sisteminin başlıca kateqoriyası olan iradə məhfumu Romantizm fəlsəfəsindən, xüsusilə F.Şlegel və Şellinqin təlimindən mənimsənilmişdir.

Şopenhauerin iradə metafizikası və volyuntarizmi Şellinqin mistik irrasionalizminin məntiqi nəticəsi olaraq formalaşmışdı. Şopenhauer Şellinq fəlsəfəsində mövcud olan «özünü-təsdiq» ifadəsinə diqqəti cəlb edir. Onun fikrincə, «özünü-təsdiq», «öz-özünü tamamlama» substansional varlığın və ənənəvi metafizikanın anlayışlarıdır. Bu anlayışlarda ağıl öz ilkin ölçü meyarını tapır və mühakimələrini bu meyarla tamamlayır. Şopenhauer özünü İ.Kant fəlsəfəsinin varisi hesab etsə də, mahiyyət etibarı ilə, F.V.Şellinqin fəlsəfi ideyalarını inkişaf etdirmişdir.

Şellinqin fikrincə, zəka həqiqi iradədir. Zəka bütün hissi olaraq qavranılan rəngarəngliklərin ilkin qaynağı, universal vahidin təsəvvürü, qanun, qayda və intizamın müəyyənləşdirilməsi qabiliyyəti kimi başa düşülür. Bundan çıxış edən Şellinq zəkanı universal iradə hesab edir. Kantın fəlsəfəsində iradə anlayışlara uyğun olaraq fəaliyyət göstərməyi ifadə edir, arzulamaq yalnız anlayışlarla müəyyən edilə bildiyi, yəni məqsəd haqqında təsəvvürlərə uyğun olaraq fəaliyyət göstərdiyi üçün iradədir. Lakin obyekt və ya mənəvi vəziyyət, yaxud davranış yalnız onların mümkünlüyü, mütləq qaydada məqsəd haqqında təsəvvürü nəzərdə tutmadığı zaman məqsədəuyğun adlandırılır, sadəcə olaraq, ona görə ki, onların mümkünlüyü bizim tərəfimizdən izah edilə bilər.

Romantizm fəlsəfəsindən qaynaqlanan Şopenhauer təlimində iradə həvəs, ruh və zəkanın ifadəsidir. Zəkaya lazım olan iradə verilmişdir. Zəka həvəsi və niyyətinə müvafiq olaraq öz ideya və anlayışlarının reallaşdırılması zamanı iradəsini həyata keçirməyə çalışır. Şellinq də qeyd edirdi ki, varlıq təşəkkül və həyatdır. Filosof "sadə" varlığı özündəvarlıqdan fərqləndirir. Onun fikrincə, "Özündəvarlıq sadəcə olaraq özündə olan əbədi iradə və azadlıqdır". Şopenhauer fəlsəfəsində iradə, qeyri-əsas kimi mövcudluğu üçün özündən kənarda hər hansı əsaslandırmaya ehtiyac duymur, o, daimi və həm də öz daxilində mövcud olur. İradə, əbədiyyət kimi, hər zaman bütün həyata keçirilənlərdən irəlidə mövcud olur. İradə, zamandan və hər hansı qanunauyğunluqdan asılı deyildir. O, hər zaman "eyni vaxtlıdır" *(nunc stans*). İradə, özünü - təsdiq kimi, daimi olaraq yaınız öz-özünə

əsaslanır. Şopenhauerə görə, “iradə anlayışı yeganə anlayışdır ki, mənbəyi hadisə və ya düşünülən təsəvvür yox, hər kəsin birbaşa şüurudur. Onda hər kəs öz fərdiliyinin mahiyyətini hansısa forma, hətta subyekt və obyekt forması olmadan, özü kimi qalaraq dərk edir, çünki burada dərk edən və idrak üst-üstə düşür”. Bu interpretasiyada iradə - özündə və özü - üçün varlıq kimi başa düşülür. Iradə müstəqil mövcud olduğuna görə rasional idrak üçün açıq deyil. Lakin iradə bizim hər birimizdə təzahür edir, buna görə də o, yalnız birbaşa düşüncədə qavranıla və hiss edilə bilər. Şellinqin fikrincə, iradə mütləq və ən düzgün olandır və o, bütün şeylərdə ilkindir. Varlıq özünün ali formasında iradə kimi müəyyən olunur, real ali mövcudluq isə ruhdur və hər şeydən əvvəl, Şellinqə görə məhəbbət ruhudur. “Çünki ruh da hələ ali deyil; o, yalnız ruh və ya mənəvi məhəbbətdir. Ən ali varlıq isə məhəbbətdir. Məhəbbət hələ əsasın mövcud olmasından da öncə var idi, lakin onunla yanaşı nifrət də mövcud idi”. Şellinq varlığın iradə anlayışını inkişaf etdirərək “əsasın iradəsi” və “ağıl iradəsi” məfhumlarını fərqləndirirdi. İradə kimi varlıqda da, hər bir aspektdə mövcud olanın subyektiv tərəfləri inkişaf edir. Şellinq və Şopenhauer bütün ənənəvi metafizikaya *subjectum* kimi yanaşır. İlkin varlıq iradədir. Özünə şərtsiz şəkildə qayıdan iradə subyektiv və həqiqi subyekt kimi təqdim edilir. Həqiqi mövcud olan və ya həqiqi iradə həm də məhəbbətdir. Şellinq və Şopenhauer arasındakı fərq özünü bunda göstərir. Şopenhauer “Dünya iradə və təsəvvür kimi” adlı traktatında həyatın metafizikası haqqında bəhs edərək dünyada qarşısıalınmaz yaşamaq həvəsinə qərq olmuş kor və ağılsız iradənin hakim olduğunu irəli sürürdü. O, qeyd edirdi ki, iradə özündə şey, həyat isə görünən dünyadır, hadisə - iradənin güzgüsüdür. Dünya kölgə və bədən kimi iradəni müşaiyət edir və ondan ayrılmazdır. Əgər iradə varsa, həyat və dünya da olacaqdır. Beləliklə, "həyat iradəsi" həyata zəmanət verir və biz həyat iradəsi ilə təmin olunduğumuz üçün, hətta ölərkən belə, öz mövcudluğumuz haqqında narahat olmamalıyıq. Əslində biz görürük ki, fərd yaranır və məhv olur, lakin fərd yalnız hadisədir, o, ancaq əsaslandırma qanununa (*principio individuationis*) tabe olan idrak üçün mövcud olur. Bu baxış bucağından fərd öz həyatını təmənnasız əldə edir, heç nədən yaranır, ölərkən bu neməti itirir və heç nəyə qayıdır. Lakin biz həyatı fəlsəfi cəhətdən, yəni onun ideyaları baxımından dərk etdikdə məlum olur ki, nə iradənin bütün hadisələrdəki özündə şey olması, nə də bütün hadisələrin tamaşaçısının idrakın subyekti kimi çıxış

etməsi yaranma və ölümlə əlaqədar deyildir. Doğulma və ölüm iradə hadisəsinə, nəticə etibarı ilə, isə həyata məxsusdur. Bütövlükdə təbiət «həyat iradəsinin təzühürü və onun həyata keçirilməsidir» Lakin Fr. Şlegeldə həyat fenomeni varlığın idrakı kimi başa düşülürdüsə, Şopenhauerdə varlıq ilkin mahiyyətə malik olan və özlüyündə iradə zamanından kənarda mövcudluq mənasında anlaşılırdı.

A.Şopenhauerdə olduğu kimi F.Nitsşe dünyagörüşünün nəzəri əsasları da Romantizm fəlsəfəsindən qaynaqlanmışdır. Romantizmin görkəmli nümayəndələri Bayron, Gete, Helderlin, Vaqner və digərlərinin ideyalarından bəhrələnən Nitsşe, yaradıcılığının erkən çağlarında daha çox romantik filosof təəssüratı bağışlayır. Nitsşenin "Musiqi ruhundan faciənin doğulması" (1871), "Zərdüşt belə demişdir" (1883-1885), "Hakimiyyət əzmi" (1887), «Vaqner kazusu» (1888) və s. bu kimi əsərlərində Romantizm meyilləri daha qabarıq nəzərə çarpır. Romantizm fəlsəfəsi üçün səciyyəvi olan ezoterizm, fəlsəfi estetizm, irrasional idrak vasitələri Nitsşe yaradıcılığının ideya nəzəri qaynaqlarını təşkil edir. Romantik filosofların sənət, musiqi, din haqqındakı mülahizələri Nitsşe yaradıcılığında yüksək dəyərləndirilir. Nitsşe Romantizm fəlsəfəsi nümayəndələrinə xüsusi rəğbət bəsləyirdi. O, Geteni alman mədəniyyətinin fəxri kimi dəyərləndirirdi. "Gete milli ədəbiyyatdan daha yüksək ədəbiyyata mənsubdur. ... Gete təkcə gözəl və böyük insan deyil, Gete bütöv bir mədəniyyətdir".

Nitsşe qədim Şərq və Yunan mifologiyasını fəlsəfi problematikanın dərkinə cəlb etdikləri üçün romantik filosofları təqdir edirdi. Qeyd etmək lazımdır ki, romantizm fəlsəfəsinin görkəmli nümayəndəsi F.V.İ.Şellinq yazırdı ki, « ...əgər formal səbəbləri hərfi mənada maddi əsas kimi qəbul etsək, onda, ideya varlığa çevrilir, möcüzəyə və ya nağıla dönür. Əgər bu sehirli möcüzəli ideyanı təyin olunmuş istiqamətdə fəaliyyət göstərən hərəkətverici səbəb kimi başa düşürüksə, təsəvvürümüzdə öz şəxsi məqsədləri üçün öz-özünə fəaliyyət göstərən sehrli, möcüzəli varlıqlar yaranır. Bu miflərdir». Nitsşeyə görə, romantiklərin əsl müdrikliyi miflərdə araması yeni tədqiqatlar üçün geniş imkanlar yaradır. Çünki mədəniyyətin inkişafı mifin yarandığı məkandan başlamışdır. O, «Həyat üçün tarixin faydası və zərəri haqqında» (1847) əsərində varlığın substansional əsaslarını dərk etmək üçün mifi tədqiqat obyektinə gətirən fəlsəfi romantizm nümayəndələrinin fikirlərini yüksək dəyərləndirir.

Nitsşe romantizm fəlsəfəsinin görkəmli nümayəndələrindən olan

Helderlinə xüsusi rəğbət bəsləyirdi. Onun fikrincə, Helderlinin yaradıcılığı fəlsəfi mühakimələr üçün geniş meydan açır, oxucunu düşünməyə sövq edir. Romantik filosoflar Helderlin, Şlegel, Şellinq və habelə, Hegel də bir tərəfdən antik yunan fəlsəfəsini ideallaşdırmağa cəhd edir, digər tərəfdən, antik filosoflara kəskin tənqidi münasibət bildirirdilər.

Bütövlükdə, Romantizm cərəyanı nümayəndələrinin mifologiya, din, poeziya, musiqi və sənətə fəlsəfi baxışları Şopenhauer və Nitsşe yaradıcılığının başlıca ideya - nəzəri mənbəyinə çevrilmişdir.

Şopenhauer və Nitsşe kimi bir çox fikir dühalarının, o cümlədən, A.Berqson (1859-1941), M.Haydegger (1889-1976), S.Kerkeqor (1813-1855), A.Kamyu (1913- 1960), V. Diltey (1833-1911), J.Derrida (1930-2004) və digərlərinin yaradıcılıqlarında Romantizm fəlsəfəsi ənənələri davam etdirilmiş və yeni şəkildə dəyərləndirilmişdir.

Beləliklə, yuxarıda bəhs olunan bu filosofların dünyagörüşündə aydın təzahür edən romantik təsir və ənənələr həmin mütəfəkkirləri Romantizm fəlsəfəsinin davamçısı kimi səciyyələndirməyə imkan verir.

İkinci yarımfəsildə **"Fəlsəfi fikrin sonrakı inkişafına Romantizmin təsiri: Modernizm və Postmodernizm"** məsələrinə elmi münasibət bildirilir.

Fəlsəfi fikirdə postklassik mərhələnin əsasını qoyan Romantizm fəlsəfəsi ənənələrindən Ekzistensializm, Həyat fəlsəfəsi, Modernizm, Postmodernizm kimi cərəyanlar bəhrələnmişdilər. Xüsusilə, Lukaçın da qeyd etdiyi kimi, Həyat fəlsəfəsi Romantizm hərəkatının varisi kimi formalaşmışdı. Qeyd etmək lazımdır ki, Lukaç Şopenhauer, Nitsşe ilə yanaşı V.Diltey və Q.Zimmeli də Romantizm fəlsəfəsinin davamçısı kimi səciyyələndirmişdi. Xatırladaq ki, Gadamer də Dilteyin ideyalarında Romantizm fəlsəfəsinin təsirlərini aydın sezmişdi. Gadamerə görə pozitivizmin təsirinə baxmayaraq, Diltey özündə romantizmin vəsiyyətnaməsini daşıyırdı və onu öz həyat fəlsəfəsinə gətirmişdi.

XX əsrdən etibarən fəlsəfi məkanda üstünlük təşkil edən ssyentizm və rasionalizm tendensiyalarına qarşı əvvəl Modernizm, bir qədər sonra isə sonra Postmodernizm cərəyanının təşəkkül tapması Romantizm fəlsəfəsi ənənələrinin dirçəlməsi və yeni şəkildə dəyərləndirilməsi ilə bağlı olmuşdur.

XIX əsrin sonu XX əsrin əvvələrindən etibarən sosiomədəni həyatın bir çox sahələrini öz təsiri əhatəsinə salan Modernizmin bir sıra

ideyaları və fəlsəfi anlayışları Romantizmdən əxz olunmuşdur. Həm Romantizmdə, həm də Modernizm və Postmodernizmdə aləmin bədii və fəlsəfi mənimsənilməsi çulğalaşır, fəlsəfi refleksiya mədəniyyətin digər sferalarına oriyentasiya edirdi. Əvvəlki fəlsəfi sistemlərin mülahizə və müddəaları ilə ziddiyyət təşkil edən modernist və eləcədə, postmodernist dünyaqavramı və dünyaanlamı irrasionallığın rasional təfəkkür üzərində üstünlüyünə rəvac verirdi. Modernizmin nümayəndələri obyektiv gerçəkliyin fərdi subyektiv qavranılmasına üstünlük verir, klassik fəlsəfənin ənənələri ilə ziddiyyət təşkil edən romantik fəlsəfi prinsiplərə söykənirdilər.

İstər Modernizm, istərsə də Postmodernizm fəlsəfəsində Romantizmdə olduğu kimi fəlsəfi kateqoriyalar vahid və sistemli şəkildə deyildi. Fəlsəfi anlayışlar müəlliflərin simasında fərqli təfsirə məruz qalır və yeni dəyərləndirmələr əxz edirdi. Modernizmdə də fəlsəfi kateqoriyalar sosio-mədəni həyatın başqa sferalarına istiqamətlənirdi. Modernizm, insanın mənəvi və həyati təcrübələrinə əsasən, onu anlayaraq dərk etməyi tövsiyə edirdi. Müvafiq olaraq, sosial fəlsəfi görüşlərdə ənənəvi anlayışlar öz yerini yenilərinə (irq, millət, milli soykök, həyat və s.) verir, və ya fərqli məna kəsb edirdi. Modernizmdə mədəniyyət fəlsəfəsi ilə yanaşı, sosial fəlsəfə, həyat fəlsəfəsi, mahiyyət fəlsəfəsi, təbiət metafizikası və insan fəlsəfəsində romantik dünyaqavramı üstünlük təşkil edirdi. Romantizmdə olduğu kimi, Modernizmdə də aləmin fəlsəfi-bədii dərkində romantik mifoloji və tarixilik metoduna üstünlük verilirdi. Lakin, Modernizmdə tarixilik prinsipi inqilab, mücadilə, həyat ehtirası, iradə, hakimiyyət, fədakarlıq və bu qəbildən olan anlayışlarla səciyyəndirilirdi. Mif yaradıcılığı insana fraqmetar şəkildə bəlirlənən varlıq proseslərinin və hadisələrinin bütövlüyünü bərpa edərək, tam şəkildə qavranılmasına imkan verir.

Modernizmdə mənəvi əxlaqi ideallara liberal münasibət formalaşır, dəyərlər yeni rakursdan qiymətləndirililir. Modernist filosoflar insanın fəal yaradıcılıq ruhunu sosial mühitin ətalətinə qarşı qoyurdu. Onlar adət və ənənələri, ictimai rəy və qadağaları şəxsiyyətin yaradıcı ruhunun təzahür etməsinə mane olan şərtlər kimi rədd edir, amoralizmin tərəfdarı kimi çıxış edirdilər. Modernizmdə həyat və ölüm kateqoriyası romantik estetik mahiyyət kəsb edərək, intihar iradə azadlığının rəhni kimi (E.Yunqer, F.Maynlender) dəyərləndirilirdi. Xüsusilə, müharibələr zamanı ölüm fədakarlıq, şəhidlik, qəhrəmanlıq kimi müsbət ifadələrlə səciyyələndirilirdi.

Nəhayət, Romantizmdə olduğu kimi, Modernizmdə də insani münasibətlərin fəlsəfi refleksiyası prioritet məsələlərdən idi. Modernizmdə şəxsiyyətin fəlsəfi-psixoloji tərəfləri önə çəkilir, insanın mənəvi aləmi, həyati təcrübəsi, emosional yaşantıları xüsusi diqqət obyekti olurdu. Romantizmdə olduğu kimi, bu cərəyanda da subyektivlik və fərdiyyətçilik yüksək dəyərləndirilir, fədakarlıq və qəhrəmanlıq yaradıcılığın estetik meyarları kimi qiymətləndirilirdi. Şəxsiyyətin harizmatikliyinə inam ifadə edən Modernizmin nümayəndələri romantiklər kimi ayrıca qəhrəmanın mədəni-yaradıcı rolunu şişirdir və onu ətalətli kütlənin iradəsinə qarşı qoyurular. Beləliklə, romantik və modernist şəxsiyyətlər, izdihamın əksinə getməyi bacaran, axına qarşı tək mübarizə aparan, durğun kütlə ruhuna qarşı öz əzmini əks etdirən çılğın və fədakar qəhrəmanlardır. Onların fədakarlığı cəmiyyətə örnək olmaq naminə edilmiş qəhrəmanıq deyildir. Bu davranış sosial mühitə, ətraf aləmə və dolayısı ilə, ilahi iradəyə qarşı ötürülmüş bir jestdir. Modernizmdə qəhrəmanlıq həm də riskli situasiyalara atılmaq kimi anlaşılırdı. Romantizmdə olduğu kimi, Modernizmdə də qəhrəmanların mübarizəsi mücərrəd və irrealdır. Bu mübarizə konkret kiməsə və ya nəyəsə yönəlməmişdir, hədəf bəlli deyildir. Burada ilahi iradə, tale və dünya nizamı suçlu kimi mühakimə edilir. Bu məqamda Romantizmin görkəmli nümayəndəsi Şatobrianın fikirlərini xatırlamaq yerinə düşərdi; Onun fikrincə, qəhrəmanlıq qələbənin yaxınlığını hiss edərək döyüşmək yox, özünün bədbəxtliyə və ölümə məhkum oluğunu bilərək mübarizə etməkdir.

Modernist qəhrəmanlar sosial-siyasi proseslərə fəal nüfuz edirdilər. Bundan başqa romantizm üçün səciyyəvi olan subyektivizm və fərdiyyətçilik, modernistlər tərəfindən əxz olunmuşdu. Lakin kamil və yüksək ideallarla yaşayan, cəmiyyətə örnək olan romantik qəhrəmanlardan fərqli olaraq, modernistlərin şəxsiyyət tipi dövrün bütün mənəvi-əxlaqi dəyərlər və ideallarından imtina etməyi tövsüyə edirdilər. Qeyd etmək yerinə düşərdi ki, modernizmin nümyəndələri romantik sentimentalizmi və keçmişin nisgilini tənqid edirdilər.

Modernizmdə mistika, folklor, teosofiya, antroposofiya, simvollar və s. əsas yer tutur. Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, modernizm yekcins cərəyan deyildir O, həmdə, bir çox sənət istiqamətlərini (simvolizm, ekspressionizm, avanqardizm, futurizm, kubizm və s.) özündə ehtiva edən sosio-mədəni hərəkatdır. Habelə, Romantizm kimi Modernizm də öz nümayəndələrinin simasında

müxtəlif çalarlar, fərqli və hətta bir-birinə zidd xüsusiyyətlər kəsb etmişdir.

Maarifçilik fəlsəfəsinin zəka kultunu və rasional ideyalarını tənqid edən Romantizm ənələrindən çıxış edən modernizmin bir sıra nümayəndələrinin - Qabriel Tard (1843-1904), Qustav Le Bon (1841-1931), Vilferdo Pareto (1848-1923), X.S.Çemberlen, R.Vaqner (1813-1883), L.Klages (1872-1956), R.Kassner (1873-1959), G.Kayzerlinq, O.Şpann (1878-1950), Ernest Yunqer (1895-1998) və A.Vensilin dünyagörüşündə qabarıq təzahür edən romantik meyillər onları hətta, neoromantizmin nümayəndələri kimi səciyyələndirməyə əsas verir. Bütövlükdə, fəlsəfədə A.Şopenhauer və F.Nitşedən başlamış, M.Haydegger də daxil olmaqla J.Derridaya qədər klassik fəlsəfə anlayışlarının sıradan çıxması və "destruksiyası" mahiyyət etibarı ilə romantik filosoflar tərəfindən əsaslandırılmışdı. Bu baxış bucağından belə qənaətə gəlmək olar ki, məhz Romantizm cərəyanı fəlsəfi fikirdə "klassikdən" "postklassikə" keçidin istinad nöqtəsini təşkil etmişdir.

Beləliklə, tədqiqata cəlb etdiyimiz Şopenhauer, Nitsşe, Modernizm və Postmodernizmin bir sıra nümayəndələrinin yaradıcılığına diqqət yetirdikdə aydın olur ki, Romantizm spesifik cərəyan kimi fəlsəfi fikir tarixində dərin iz qoymuş və neoromantizm formasında inkişaf etmişdir. Modernizm, Postmodernizm və sair bu qəbildən olan cərəyanların nümayəndələrinin simasında Romantizm ənənələri XX yüzillikdə davam etməklə fəlsəfi fikirdə romantik tendensiyanın inkişafına səbəb olmuşdur.

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqatın əsas müddəaları ümumiləşdirilir və aparılmış araşdırmalara yekun vurulur. Tədqiqat nəticəsində əldə edilmiş qənaətlərə istinadən təklif və tövsiyələr verilir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1. Romantizm fəlsəfəsinə dair mülahizələr BDƏKI-nin V Elmi-nəzəri konfransının materialları, II hissə, Bakı, «Çaşıoğlu» 1997, 252 s
2. Məhəmməd Hadinin fəlsəfəsi dünyagörüşünə dair mülahizələr AMEA, Ə.Bəhmənyar adına Fəlsəfə və Hüquq Institutu, «Sosial-siyasi fəlsəfə problemləri», Bakı, «Təbib» nəş. 1999, 400 s.
3. Romantik teosofiya AEA, Fəlsəfə, Sosiologiya və Huquq Institutu, «Müasir elm və ictimai praktika: fəlsəfi problemlər», (Məqalələr toplusu) Bakı, 2000.

4. Romantizmin fəlsəfi aspektdə tədqiqində qarşıya çıxan metodoloji problemlər AEA, Fəlsəfə, Sosiologiya və Hüquq Institutu, «Müasir mərhələdə sosiohumanitar elmlərin sosioloji və metodoloji problemləri», Bakı, Çaşıoğlu nəşriyyatı, 2000.
5. Məhəmməd Hadinin etik baxışları AEA, Fəlsəfə və Hüquq Institutu, «Azərbaycan cəmiyyəti transformasiya şəraitində», Bakı, 2001, 159 s.
6. Hadinin estetik görüşləri AEA, Fəlsəfə, Sosiologiya və Hüquq Institutu, Azərbaycan cəmiyyəti transformasiya şəraitində, B., 2001, 159 s.
7. Məhəmməd Hadinin siyasi görüşləri AMEA, Ə.Bəhmənyar adına Fəlsəfə və Hüquq Institutu, «Vətəndaş cəmiyyətinə doğru: nəzəriyyə və reallıqlar», Bakı, «Adiloğlu» nəş. 2001.
8. XX əsr Azərbaycan Romantizmi Milli Istiqlal Mücadiləsində AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutu, Azərbaycan Xalq Cümhuriyyəti və milli müstəqilliyin ideya-siyasi problemləri, AXC-nin 85 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları, Bakı, 2003.
9. Məhəmməd Hadi Romantizminin fəlsəfəsi Azərbaycan Dövlət Iqtisad Universitetinin nəşri, Bakı, 2003, 168 s.
10. Məhəmməd Hadi dünyagörüşündə qadın AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutu, Azərbaycan bədii və ictimai-fəlsəfi fikrində qadın məsələsi, Bakı, Adiloğlu nəş., 2004, 194s.
11. Romantizm cərəyanının tədqiqinin aktuallığına dair mühakimələr AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutunun, 60 illiyi və YUNESKO-nun «Ümumdünya fəlsəfə günü»nə həsr olunmuş elmi konfransın materialları, B., «Elm», 2005, 310 s.
12. Romantizmin fəlsəfi problemləri AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutu, Fəlsəfə, elmi-nəzəri jurnal, №1 Bakı- 2005.
13. Romantizm fəlsəfəsində idrak məsələləri AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutu, Fəlsəfə, elmi-nəzəri jurnal, №1(6) Bakı, 2007.
14. Avropa romantiklərinin Şərqə və Islama münasibəti. AMEA, Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutu və UNESKO «Dünya fəlsəfəsi konteksində Islam bölgəsi fəlsəfəsinin tədqiqi və tədrisi problemləri» konfransının materialları, Bakı, 2008.
15. Вопросы религии в философии Романтизма «Религия и обшество-5: актуальные проблемы свободы совести». Сборник научных статей Международной-научно-практической конференции. /под

общ. ред. В.В.Старостенко, О.В.Дьяченко/ г. Могилев: УО «МГУ им. А.А.Кулешова (Беларусь) 06.05.2010, 264с.
16. Актуальность исследования философского аспекта Романтизма Материалы II всероссийской научной конференции. «Научное творчество XXI века» В мире научных открытий: научное периодическое издание ОЭНК 2010. №4. (10), часть 12., Россия г. Красноярск, а/я 2337, 2010.
17. Романтическая философия религии Альманах современной науки и образования. Тамбов: Грамота, №3 (34) в 2-х ч. Ч.2. 2010.
18. Вопросы познания в философском романтизме Молодой ученей. 1-2 (13), том-1, Чита, 2010.
19. Философия Романтизма Общественные Науки. Всероссийский научный журнал. Изд. МИИ наука Москва, 2010/4.
20. Романтизм как универсальное социокультурное течение Материалы конференцию «Наука и Современность-2010» (НиС-1).
21. Методологические приемы и принципы в философского романтизма Актуальные вопросы современной науки /Сборник научных трудов. Выпуск 13/ Новосибирск: Издательство «СИБПРИНТ», 2010. 236 с.
22. Актуальные вопросы исследования Романтизма как социокультурного течения. Наука в современном мире: Материалы 1 Международной научно-практической конференции. Сборник научных трудов. М. Изд. «Спутник+», 2010, 437 с.
23. XX Yüzyıl Azerbaycan”da Romantizm Akımının Sosyal-Siyasal Temelleri Birinci Uluslararası Felsefe Konqresi. «Özgürlük, Eşitlik və Kardeşlik», Bildiri Metinleri, 14-16 ekim Uludağ Üniversiteti, Bursa, Türkiye, 2010.
24. Проблемы Азербайджанского романтизма XX века. Крымский Научный Центр Национальной Академии Наук. Культура народов причерноморья, научный журнал, № 194, Крым, 2010.
25. Романтизм как конкретно-исторического явления в глобальном социокультурном пространстве. Актуальные проблемы гуманитарных и естественных наук. Ежемесячный научный журнал. №3, март, Москва, 2010.
26. Творческие принципы и вопросы методологии в философском романтизме Вестник Университета. Научный журнал №4 (30),

Дущанбе 2010.
27. Вопросы религии в философии Романтизма Сборник научных трудов актуальным вопросам современной науки. Проблемы духовных ценностей в философии и культуре (книга-3).
28. К вопросу исследования социокультурного и философского контекстов романтизма. Вестник Воронежского Государственного университета, научный журнал, серия философия 1(5)-2011.
29. Romanticism as the cultural-historic epoch in the history of social and philosophic conception. The International Institute for Science, Technology and Education (IISTE) Journal of Education and Practice - Vol 2, No 2 2011, www.iiste.org ISSN 2222-1735 (Paper) ISSN 2222-288X (Online).
30. Актуальные вопросы исследования Романтизма как социокультурного течения Поиск. Серия Гуманитарных наук, Научное приложение Международного научно-педогогического журнала «Высшая школа Казахстана» №1(1)/2011.
31. Fəlsəfə və ictimai fikir tarixində Romantizm ənənələri AMEA Fəlsəfə, Sosiologiya və Hüquq Institutu, Beynəlxalq elmi nəzəri jurnal, № 2, (17) B., 2011.
32. Romantizm fəlsəfəsində antropososigenezis problemi Bakı Dövlət Universiteti Ilahiyyat Fakültəsinin Elmi Məcmuəsi, B., 2011.
33. Romantizmin fəlsəfi tarixi qaynaqları Mədəniyyət Dünyası, Azərb. Dövlət Mədəniyyət və Incəsənət Universiteti, B., 2011.
34. Sosio-mədəni unversal cərəyan kimi Romantizmin fəlsəfi səpkidə tədqiqinin aktuallığına dair mülahizələr AMEA Fəlsəfə, Sosiologiya və Hüquq Institutu, Elmi Əsərlər, Beynəlxalq elmi nəzəri jurnal, № 1, (16) B., 2011.
35. Azərbaycan romantiklərinin irsində Şərq və Qərb problemi Dövlət Idarəçiliyi: Nəzəriyyə və Təcrübə. Azərbaycan Respublikasının Prezident yanında Dövlət Idarəçilik Akademiyası, № 2, (34), DIA-nın nəş., Bakı, 2011.
36. Şərqdə Romantizmin fəlsəfi problematikası (C.X.Cübran və Ə. Ər-Reyhani irsinin tədqiqi əsasında) Şərq fəlsəfəsi problemləri, AMEA Fəlsəfə, Sosiologiya və Hüquq Institutu, B., №1, 2011.
37. Romantizm fəlsəfəsi Bakı, Elm nəş. 2011, 168 s.
38. Fəlsəfə və ictimai fikir tarixində Romantizm ənənələri. AMEA Fəlsəfə, Sosiologiya və Hüquq Institutu, Elmi Əsərlər, Beynəlxalq

elmi nəzəri jurnal, № 2, (17) B., 2011.
39. Романтическая трактовка религии Вестник Унив-та. Научный журнал №4 (35), Дущанбе , 2011.
40. F. Nitsşe fəlsəfəsində romantizm meyilləri Bakı Dövlət Universiteti Ilahiyyat Fakültəsinin Elmi Məcmuəsi, Bakı, 2012.
41. Romantizm sosio-mədəni həyatın universal fenomeni kimi AMEA-nın Xəbərləri. Tarix, Fəlsəfə, Hüquq Seriyası. AMEA, Bakı, Elm, №1, 2012.
42. A.Şopenhauerin fəlsəfi irsində romantizm ənənələri Bakı Universitetinin Xəbərləri. Sosial-Siyasi Elmlər Seriyası, BDU, №3, 2012.
43. Conservatively-romantic tendency in political conception The International Journal of Interdisciplinary Social Sciences, Volume 6, Issue 4, 2012. University of Illinois, Urbana-Champaign, USA, 2012.
44. Романтизм как необходимый и закономерный этап в истории философской мысли Материалы международной научно–практической конференции, Теоретические практические инновации в науке, 28.04.2012-30.04.2012. ч.3, Гданськ, 2012.
45. Амин–ар Рейхани видный представитель Восточного Романтизма Сборник научных докладов, международной научно–практической конференции научных исследований, Люблин, Варшава 2013, 136 стр.
46. The Role of the philosophy of Romanticism in the formation of post-classical and post-non-classical philosophies. Salmagundi, Skidmore College, USA-2015, November, vol.8 Thomson & Reuters, Arts and Humanities Citation Index Scopus.
47. Romantizm qlobal mədəni məkanın universal fenomeni kimi. AMEA Fəlsəfə və Hüquq Institutu, Elmi Əsərlər, Beynəlxalq elmi -nəzəri jurnal, № 2, (25) Bakı, 2015.

**МАМЕДОВА АФАГ СУЛТАН КЫЗЫ**

# ЭТАП РОМАНТИЗМА В ИСТОРИИ ФИЛОСОФСКОЙ МЫСЛИ (XVIII – XX века)

## Резюме

Представленная диссертация посвящена философскому исследованию универсального социокультурного течения – Романтизма как необходимого и закономерного этапа в истории философской мысли. Диссертация состоит из введения, четырех глав, двенадцати параграфов, заключения и списка использованной литературы. `

Во введении работы обосновывается актуальность темы, излагается степень ее разработанности, цели и задачи, методология исследования, указываются ее научная новизна, теоретическое и практическое значение, даются сведения о ее апробации и структуре.

В первой главе диссертации, называемой **«Романтизм как универсальный феномен духовно-культурного развития»**, романтизм исследуется как особый этап в глобальном культурном пространстве и истории философской мысли. В соответствующих параграфах указанной главы выражается отношение к подходам, существующим в научной литературе в связи с Романтизмом, прослеживается его проявление в разных сферах духовной культуры, исследуются историко-теоретические источники философии Романтизма.

Во второй главе диссертации, называемой **«Философские проблемы Романтизма»**, исследуются и анализируются философская проблематика романтизма, его основные идеи и принципы. В отдельных параграфах, охватывающих философские проблемы романтизма, исследуются вопросы онтологии, гносеологии, теософии и антропологии. В данной главе отмечается, что в философии Романтизма различие между субъектом и объектом, онтологией и гносеологией снимается, и обосновывается принципиальное тождество объекта и субъекта, бытия и мышления.

В третьей главе диссертации рассматриваются **«Особенности развития и философская характеристика Восточного Романтизма как социокультурного течения»**. В отдельных

параграфах этой главы исследуются сущность и философские основы восточного Романтизма, философские проблемы азербайджанского Романтизма и романтическая дихотомия «Запад-Восток». В главе на основе обращения к наследию представителей Романтизма (Г.Джавид, М.Хади, Т.Фикрет, Дж.Х.Джебран, А.ар-Рейхани и др.), представляющих национальные культуры восточных народов (Японии, Кореи, Сирии, Ирана, Турции, Азербайджана и т.д.) Романтизм характеризуется как универсальное социокультурное течение. Впервые проводится исследование философских и эстетических взглядов восточных романтиков и обосновывается мысль о том, что Романтизм представляет собой универсальное проявление мировой духовной культуры, в котором нашло отражение сущностное единство Запад-Восток.

Четвертая глава диссертации называется «**Романтические тенденции в истории философии**». В отдельных параграфах этой главы исследуются вопросы влияния романтизма на дальнейшее развитие философской мысли, романтические традиции в истории философской и общественной мысли. В этом контексте раскрывается влияние Романтизма на парадигмы западной философии и взгляды видных западных философов, в наследиях которых отражены традиции Романтизма, а также на дальнейшее развитие философской мысли. При рассмотрении этих вопросов автор проводил сравнительный анализ философского наследия Шопенгауэра, Ницше, а также представителей Модернизма и Постмодернизма

В заключении диссертации обобщаются основные положения и подводятся итоги проведенного исследования.

**MAMMADOVA AFAG SULTAN GYZY**

# THE STAGE OF ROMANTICISM IN THE HISTORY OF PHILOSOPHICAL THOUGHT (XVIII-XX centuries)

## Summary

The present dissertation is devoted to the study of Romanticism, a universal socio-cultural movement, as an essential and appropriate stage of the history of philosophical thought in the philosophical context. The dissertation consists of an Introduction, four chapters, twelve subchapters, Conclusion and Suggested Literature.

The ***Introduction*** of the dissertation substantiates the timeliness of the topic, determines the level of study of the problem, states the goals and tasks of the research, its methodology, scientific novelty, theoretical and practical significance, and provides information about its approbation and structure.

The first chapter of the dissertation titled ***Romanticism as a Universal Phenomenon of the Moral and Cultural Development*** studies Romanticism as a stage of particular significance in the global cultural space and the history of philosophical thought. The sub-chapters of this section express an opinion on the viewpoints existing in the scientific literature on Romanticism, follow its manifestation in different spheres of spiritual culture, and study the historical theoretical sources of Romanticism philosophy respectively.

The second chapter ***The Philosophy of Romanticism*** studies and analyzes the philosophical problematics of Romanticism, its basic ideas and principles. Here different subchapters, which cover the philosophical problems of Romanticism, study the issues of ontology, epistemology, theosophy and anthropology. It is pointed out in the chapter that the philosophy of Romanticism removes the difference between ego and non-ego, ontology and epistemology; it substantiates the identity between non-ego and ego as well as between being and thinking in principle.

The third chapter is on ***The Development Peculiarities and Philosophical Characteristics of Romanticism as a Socio-Cultural Movement in the East***. Here different subchapters study the character and philosophical bases of Romanticism in the East, the philosophical problems of Azerbaijani Romanticism and the dichotomy of “East” and

“West” in Romanticism respectively. Referring to the investigation of the legacy of the members of Romanticism (Javid, Hadi, T.Fikret, Gubrani, Reyhani and others) representing the national cultures of Eastern nations (Japan, Korea, Syria, Iran, Turkey, Azerbaijan and so on), this chapter characterizes Romanticism in the West and East as a universal socio-cultural movement, studies the philosophical and aesthetic views of Eastern romanticists, for the first time, from the perspective of philosophy, and reflects Romanticism, which is the leitmotif of the dissertation, as the universal manifestation of the world spiritual culture and the unity of the East and West in this manifestation to all intents.

The fourth chapter of the dissertation is titled ***The Trends of Romanticism in the History of Philosophy***. Different subchapters of this section study correspondingly the impact of Romanticism on the further development of the philosophical thought, the traditions of Romanticism in the history of philosophy and public opinion. In this context, it is elucidated that the paradigms of Western philosophy and the views of the outstanding philosophers have benefitted from Romanticism, the traditions of Romanticism have found their expression in the Western philosophical legacy, and Romanticism has influenced the further development of the philosophical idea. In the solution of all these matters, the author relies on the comparative analysis of the philosophical legacy of Schopenhauer, Nietzsche as well as the representatives of Modernism and Post-modernism.

The ***Conclusion*** of the dissertation abstracts out the main provisions of the research and summarizes the conducted research.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНТСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**МАМЕДОВА АФАГ СУЛТАН КЫЗЫ**

# ЭТАП РОМАНТИЗМА В ИСТОРИИ ФИЛОСОФСКОЙ МЫСЛИ (XVIII – XX века)

**Специальность: 7210.01 – История философии**

**А В Т О Р Е Ф Е Р А Т**

на соискание ученой степени
доктора наук по философии

**БАКУ – 2016**